5

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-15 may 2016-cı il Şənbə № 104 (6425) Qiymәti 60 qəpik

**Xəbər**

## Müəllimindən hamilə qalan bakirə qızın məsələsi böyüdü

yazısı səh.12-də

**Gündəm**

## Cənubi Qafqazda Rusiya-NATO müharibəsi baş verə bilər


Elxan Şahinoğlu

**Politoloqdan həyəcanlı xəbərdarlıq və təklif:** "Türkiyənin Azərbaycanda hərbi baza yerləşdirməsinə ehtiyac var"

yazısı səh.9-da

## Ermənilər Tərtərin Qazyan kəndini ağır artilleriyadan atəşə tutdu

yazısı səh.2-də

## İqbal Ağazadənin seçki kampaniyasına müdaxilə məsələsi böyüyür

yazısı səh.4-də

*Mirvari Qəhrəmanlı:*

## "Amnistiya olsa, çox qapılar açılar"

yazısı səh.3-də

*İsgəndər Həmidov:*

## "Ayaz Mütəllibov dövlət çevrilişi etmişdi"

yazısı səh.4-də

## Vyana görüşü - "diplomatik tələ", yoxsa...

yazısı səh.9-da

## Vəkillər Kollegiyası daha bir tanınmış vəkillə məhkəmədə üz-üzə gəldi

yazısı səh.6-da

## "Ermənilərin Azərbaycana böyük köçü başlaya bilər"

yazısı səh.10-da

## Qarabağa dair "3+2 formatı" - Vyana gözləntiləri nə vəd edir?

yazısı səh.11-də

## "Stop Metsamor!" petisiyası üzrə imza toplamağa start verildi

yazısı səh.10-da

## Müsavatçı mühacirlərin İsveçrədə tapdığı qəbirlərin sirri açıldı - sensasiya

yazısı səh.13-də

## Azərbaycan yenidən regional proseslərin episentrində

# PUTİN ERMƏNİLƏRİN 1 NÖMRƏLİ DÜŞMƏNİNİ BAKIYA GÖNDƏRİR - İŞĞALÇINI QICIQLANDIRAN ŞOK GƏLİŞMƏ

Ermənilərin faktiki "persona non-qrata" elan elədiyi Roqozinin prezidentlərin Vyana görüşündən dərhal sonra Azərbaycana gəlişinin pərdəarxası; ziyarətin silahlarla bağlı olduğu da deyilir; sabah isə Qəbələdə Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin görüşü başlayır...




yazısı səh.8-də

# Keçmiş baş prokuror sükutu pozdu - ilginc ittihamlar...

İxtiyar Şirin "Yeni Müsavat"a heyrətamiz faktlar açıqladı; "Surət Hüseynov dedi ki, biz o torpaqları ermənilərə alborcu vermişik"; "Azərbaycan 1994-cü ilin atəşkəsindən imtina etməlidir"

yazısı səh.7-də



*Ayaz Mütəllibov:*

## "Qarşılarına məqsəd qoymuşdular ki, nəyin bahasına olursa-olsun hakimiyyəti götürməliyik"

yazısı səh.5-də



## Mahmudovun soyduğu iş adamlarından biri öldü, digəri sabiq naziri söydü

yazısı səh.6-da



*Xələf Xələfov:*

## "Ermənistan ən azı Nürnberq prosesində olduğu kimi, cinayətlərinə görə cavab verməli idi"

yazısı səh.3-də



# Prezident Gədəbəydə yol tikintisinə 2,5 milyon manat ayırdı

**Prezident İlham Əliyev Gədəbəy rayonunun Novosaratovka-Çobankənd-Novoivanovka avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, 7 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Novosaratovka-Çobankənd-Novoivanovka avtomobil yolunun tikintisi məqsədi ilə Prezidentin ehtiyat fondundan "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 2,5 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Ermənilər Tərtərin Qəzyan kəndini ağır artilleriyadan atəşə tutdu



**Ermənistanın silahlı bölmələri Tərtərin yaşayış məntəqəsini atəşə tutmağa başlayıb. Müdafiə Nazirliyindən APA-ya verilən məlumata görə, mayın 13-ü saat 18.20 radələrindən etibarən Ermənistan silahlı bölmələri tərəfindən Tərtər rayonunun Qəzyan kəndinin ərazisi 120 millimetrlik minaatanlardan atəşə tutulmağa başlayıb.**

Silahlı Qüvvələrimizin bölmələri tərəfindən əməliyyat şəraitinə uyğun tədbirlər həyata keçirilir, düşmənin atəş nöqtələrinə cavab zərbələri endirilib.

Bu cür təxribatların nəticəsi olaraq gələcəkdə baş verə biləcək hadisələrə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

# Astarada 2 nəfərin ölümünə bais olan sürücü tutuldu

**Astara rayonunda 2 nəfərin ölümü, 9 nəfərin yaranlanmasına səbəb olan və hadisə yerindən qaçan sürücü tutulub. "Report"un məlumatına görə, 90 JS 588 dövlət qeydiyyat nömrə nişanlı, "Shacman" markalı yük maşınının sürücüsü Xaçmaz rayon sakini, 1984-cü il təvəllüdlü Vüsal İmran oğlu Xudaverdiyev tutularaq istintaqa cəlb olunub.**

V.Xudaverdiyev hüquq-mühafizə orqanlarının əməkdaşlarına ilkin ifadəsində yük maşınının əyləc sistemində nasazlığın olduğunu bildirib: "Bir neçə dəfə "tormuzu" basdım, "tormuz" tutmadı. Ona görə də maşını saxlaya bilmədim, maşın "Ford"la toqquşaraq aşdı".

Qeyd edək ki, bu gün səhər saatlarında Ələt-Astara magistral yolunun 220-ci kilometrliyində Astaranın Çayoba kəndi ərazisndə ağır yol-nəqliyyat hadisəsi baş verib. Lənkəran-Astara marşrut xətti üzrə sərnişindaşıma fəaliyyəti ilə məşğul olan Qabil Adil oğlu Əliyevin idarə etdiyi 90 MJ 647 dövlət qeydiyyat nömrə nişanlı "Ford" markalı mikroavtobus, "Ray Construction" şirkətinə məxsus, Vüsal İmran oğlu Xudaverdiyevin idarə etdiyi 90 JS 588 dövlət qeydiyyat nömrə nişanlı "Shacman" markalı yük maşını ilə toqquşub. Nəticədə 2 nəfər ölüb, 9 nəfər yaralanıb.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Mayda Putinin Bakıya səfəri planlaşdırılmayıb"

**May ayında Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfəri planlaşdırılmayıb. Bu barədə APA-nın Moskva müxbirinə Kremlin mətbuat xidmətindən məlumat verilib.**

Məlumatda bildirilib ki, V. Putinin may ayında Bakıya səfər edəcəyi ilə bağlı xəbərlərin heç bir əsası yoxdur: "Bu ay ərzində prezidentin Azərbaycana səfəri planlaşdırılmır".

Diplomatik mənbələrdən APA-ya verilən məlumata görə isə Rusiya prezidentinin yay fəslinin sonuna kimi Azərbaycana səfər edəcəyi istisna edilmir. Səfər güman ki, Azərbaycan, Rusiya və İran prezidentlərinin üçtərəfli görüşündə iştirakla bağlı olacaq.



## Təcridxana və cəzaçəkmə müəssisəsinin rəisləri işdən azad edildilər

**2 saylı İstintaq təcridxanasının rəisi, ədliyyə polkovniki Şakir Bayramov və 4 saylı cəzaçəkmə müəssisəsinin rəis müavini, ədliyyə polkovnik-leytenantı Emin İslamov tutduqları vəzifələrdən kənarlaşdırılıb.**

Ədliyyə Nazirliyinin Penitensiar xidmətindən APA-ya verilən məlumata görə, təsdiq olunmuş rüblük iş planları əsasında cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında məhkum və həbs edilmiş şəxslərin maddi-məişət şəraiti, təhlükəsizliyinin təmin olunması, qanunla nəzərdə tutulan hüquqlarının qorunması, asudə vaxtlarının səmərəliliyi, ictimai-faydalı əməklə məşğul olmalarının təşkili və sair hallarla bağlı vəziyyətin bir qayda olaraq yoxlanılmasına, eləcə də aşkar edilmiş nöqsanları doğuran səbəb və şəraitin aradan qaldırılmasına yönələn zəruri tədbirlər görülür.

Bu ilin ikinci rübü üzrə nəzərdə tutulmuş iş planına uyğun olaraq 2 saylı İstintaq təcridxanasında və 4 saylı cəzaçəkmə müəssisəsində aparılmış yoxlama nəticəsində aşkar olunmuş bir sıra nöqsanlar Penitensiar xidmətin Baş İdarəsində müzakirə edilib.

Xidmətdən bildiriblər ki, digər bəzi əməkdaşlar barədə isə müxtəlif tənbeh tədbirləri tətbiq edilib.

## Bakıda transformatora girən uşaq yandı

**Bakının Xətai rayonunda faciəli hadisə baş verib. "Report" məlumat verir ki, 2008-ci il təvəllüdlü Tunar Əliyev yaşadığı evin yaxınlığında - Süleyman Əhmədov küçəsi 6 ünvanında yerləşən üç fazalı transformator məntəqəsinə daxil olub. Nəticədə onu elektrik cərəyanı vurub, azyaşlı hər iki əl və baş nahiyyəsindən xəsarət alıb.**

Yaralı Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib.

Qeyd edək ki, transformator "Azərişıq" ASC-nin Xətai Rayon Enerji Satışı və Təchizatı İdarəsinin balansındadır.



# Şabir Rüstəmxanlının qardaşı İnterpol xətti ilə saxlanılıb

**Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin rəhbəri, keçmiş polis rəisi, VHP sədri Sabir Rüstəmxanlının qardaşı Əlövsət Əliyevin bu günlərdə Ukraynada saxlanıldığı məlumatı yayıldı. Bu xəbəri Lent.az-a Ə.Əliyevin qardaşı, "Qanun" Nəşrlər Evinin sahibi Şahbaz Xuduoğlu təsdiqləyib. Ş.Xuduoğlu bildirir ki, qardaşı beynəlxalq axtarışda olduğu üçün saxlanılıb:**

"Ukraynada bu işi araşdırdılar. Məhkəmə keçirildi. Və proses zamanı məlum oldu ki, saxlanılması üçün heç bir əsas yoxdur. Prosesə elə oradan vəkil Dmitry Morgun çıxmışdı. Və sonra da azad olundu. Həmin günlər də mən də Əlövsət Əliyevin yanında idim".

Ş.Xuduoğlunun sözlərinə görə, qardaşı hələ də Ukraynadadır. Və tezliklə Almaniyaya dönməyi planlaşdırır.

Qeyd edək ki, Əlövsət Əliyev Almaniyada mühacirətdədir. Onu Daxili İşlər Nazirliyinin generalı Emin Şəkinskinin keçmiş arvadı Gülnarə Şəkinskayanın ölkədən qaçırılmasında günahlandırırdılar.

# Qazaxda dükanlardan pul yığan "Ombusdman Aparatının əməkdaşı" tutuldu



**Qazaxda özünü Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombusdman) Aparatının əməkdaşı kimi təqdim edən şəxs tutulub. "Report"un məlumatına görə, rayon sakinlərinə özünü Ombusdman Aparatının əməkdaşı kimi təqdim edən 55 yaşlı Şahməddin Həsənov müxtəlif mağazalara gedərək dələduzluq edib.**

Ş.Həsənovun sonuncu qurbanı Qazax rayon sakini Fariz Namazov olub.

Zərərçəkən Qazax Rayon Polis Şöbəsinə müraciət edərək 68 manat məbləğində ərzaq mallarının, 200 manat nağd pulunun mənimsədiyini bildirib. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində saxta vəsiqə ilə insanları aldadan Şahməddin Həsənov Ağstafa rayon Poylu qəsəbəsində saxlanılıb.

Araşdırmalar zamanı onun Şirvan şəhərində qeydiyyatda olduğu məlum olub.

# Bakı sakini ölüm ayağında olarkən polisi aldatdı

**Mayın 11-də Pirallahı rayon sakini Namiq Balayev kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib və orada ölüb. Daxili İşlər nazirliyinin mətbuat xidmətindənAxar.az-a verilən məlumata görə, o, xəstəxanaya aparılarkən dəniz sahilində qayığın lövbərinin üstünə yıxılması nəticəsində xəsarət almasını bildirib.**

Pirallahı RPŞ faktla əlaqədar Cinayət Məcəlləsinin 124-cü (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlayıb. Araşdırmalar zamanı müəyyən edilib ki, mərhum polisə həqiqəti deməyib, belə ki, N.Balayevə xəsarətin Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Vidaddin İbrahimov tərəfindən yetirilməsi müəyyən edilib.

Pirallahı RPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində V.İbrahimov həbs edilib.

## Azərbaycanda su təchizatı üzrə tariflər artırıldı

**Mayın 13-də Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. APA-nın məlumatına görə, iclasda su təchizatı və tullantı sularının axıdılması, dərman vasitələrinin ekspertizası xidmətlərinin tariflərinə baxılıb və müvafiq tarif tənzimlənməsi aparılıb.**

"Azərsu" ASC-nin müraciəti əsasında bir kubmetr su təchizatının tarifi ƏDV daxil olmaqla, əhali üzrə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üçün 35 qəpik, digər inzibati ərazi vahidləri üzrə 30 qəpik, qeyri-əhali üzrə əvvəlki səviyyədə - bir kubmetr üçün 1 manat, sudan xammal kimi istifadə edənlər üçün isə suyun istifadə təyinatından asılı olmayaraq (tullantı sularının axıdılması xidmətləri də daxil olmaqla) bir kubmetr üçün 8 manat müəyyən edilib. Tullantı sularının axıdılması xidmətlərinin tarifləri əhali üçün bir kubmetr üçün 15 qəpik, qeyri-əhali üzrə 1 manat səviyyəsində təsdiq olunub.

Tarif (qiymət) Şurasının iclasında həmçinin, Səhiyyə Nazirliyinin müraciəti nəzərə alınaraq, dərman vasitələrinin ekspertizası xidmətləri üzrə təsnifatlaşdırmanın təkmilləşdirilməsi, qeydiyyat prosesində doza və qablaşdırma üzrə çeşid sayının optimallaşdırılması məqsədilə dərman vasitələrinin dövlət qeydiyyatı ilə bağlı ekspertizası və ölkəyə idxal olunan və ya ölkə daxilində istehsal olunan dərman vasitələrinin laborator ekspertizası xidmətləri üzrə tarif tənzimlənməsi həyata keçirilib.

İclasda "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Ceyranbatan su anbarı üzrə satılan hər 1000 kubmetr suyun topdansatış tarifi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2007-ci il 26 iyul tarixli 19 nömrəli Qərarı ləğv edilib.

Yeni tariflər 2016-ci il 16 may tarixindən qüvvəyə minəcək.

## Ermənilər səhvən öz pilotsuz uçuş aparatını vurdular

**Azərbaycan Müdafiə Nazirliyi Ermənistan mətbuatının guya Azərbaycana məxsus pilotsuz uçuş aparatının (PUA) vurulmasına dair xəbərinə münasibət bildirib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Report"un sorğusuna cavab olaraq bildiriblər ki, Azərbaycan Silahlı Qüvvələrinin sərəncamında olan bütün PUA-lar yerindədir.

"Dəqiq məlumata görə isə erməni tərəfi səhvən öz PUA-nı vuraraq yerə salıb və bu cür məlumatlar yaymaqla fikri həqiqətdən yayındırmaq istəyir.

Bildiririk ki, mayın 13-də cəbhə bölgəsində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus "X-55" tipli PUA bölmələrimiz tərəfindən xüsusi üsulla endirilib.

Beləliklə, mayın 13-də erməni tərəfinə məxsus 2 ədəd PUA məhv edilib", - deyə sorğuda qeyd olunub.

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Milli Məclisdə Qarabağ dinləmələri keçirildi

**Mayın 13-də Milli Məclisdə (MM) parlamentin İnsan hüquqları komitəsinin təşəbbüsü ilə son zamanlar cəbhə xəttində baş verənlərlə bağlı dinləmələr öz işinə başlayıb.**

“Təmas xəttində son hadisələr: beynəlxalq humanitar hüququn problemləri” adlı dinləmələrdə Milli Məclisin rəhbərliyi, beynəlxalq təşkilatlarda Azərbaycanı təmsil edən deputatlar, Müdafiə, Xarici İşlər nazirliklərinin, Hərbi Prokurorluğun, QHT-lərin təmsilçiləri, həmçinin beynəlxalq təşkilatların nümayəndələri iştirak edib.

**Milli Məclis sədrinin müavini Bahar Muradova** giriş nitqində Ermənistan-Azərbaycan münaqişəsinin uzun illərdir davam etdiyini bildirib. Onun sözlərinə görə, Azərbaycan bu illər ərzində beynəlxalq hüququn normalarına uyğun olaraq münaqişənin ədalətli həllinə çalışır. Lakin B. Muradova təəssüf hissi ilə vurğulayıb ki, Ermənistan münaqişənin ədalətli həllində konstruktiv mövqe tutmaqdan yayınır, status-kvonun uzadılmasına çalışır: “Eyni zamanda, Ermənistan tərəfi, erməni rəhbərliyi bu münaqişəni başlamaqla və onun həllinə maneçilik törətməklə həm də öz xalqını uçuruma saldı, onların gələcəyini məhv etdi”.



**Xələf Xələfov:** “Ermənistan ən azı Nürnberq prosesində olduğu kimi, cinayətlərinə görə cavab verməli idi”



**Vaqif Dərgahlı:** “Düşmənin 30-a qədər tankı məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artığı yaralandı”

“Nəticələrinin aradan qaldırılması istiqamətində həlledici mərhələyə qədəm qoyulub. Azərbaycanın bütün resursları işğalın nəticələrinin aradan qaldırılması, ərazi bütövlüyünün bərpa olunması istiqamətində mübarizəyə yönəlib”. Bunu isə **xarici işlər nazirinin müavini Xələf Xələfov** deyib. *(Modern.az)* Nazir müavini bildirib ki, münaqişənin həllində yeni mərhələyə qədəm qoymuşuq. “Təəssüflər olsun ki, bu münaqişə ”Dağlıq Qarabağ" münaqişəsi adlandırılır. Əslində, bu, Ermənistanla Azərbaycan arasında olan münaqişədir" - deyə, nazir müavini bildirb. X.Xələfov deyib ki, Ermənistan ən azı Nürnberq prosesində olduğu kimi, cinayətlərinə görə cavab verməli idi.

Dinləmələrdə bir sıra ilginc açıqlamalar da səslənib. “Keçən il cəbhə xəttində vurulan vertolyot məhz Ermənistandan gətirilmişdi. Ermənistanın məqsədi başqa dövlətləri bu münaqişəyə cəlb etmək idi”. **Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı** bildirib. Aprel toqquşmalarının necə başlamasından danışan nazirlik rəsmisi deyib ki, Ermənistan hərbi birləşmələri bu ilin mart ayında təmas xəttində dinc əhalinin yaşadığı məntəqələri ağır silahlardan atəşə tütmağa başladı. Onun sözlərinə görə, eyni zamanda, aprelin əvvəlində düşmən ön mövqedəki qüvvələrimizi sıradan çıxarmaq istəyirdi: “Cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti idi. Müdafiə Nazirliyi tərəfindən qısa müddətdə düşmənin ön və dərinlikdə cəmləşən qüvvələri müəyyənləşdirildi, sıradan çıxarıldı. Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər, Horadizə təhlükə yaradan Lələtəpə yüksəkliyi azad edildi. Düşmənin 30-a qədər tankı məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi. Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-həmlə əməliyyatının məqsədi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi və bu da uğurla yerinə yetirildi. Düşmən tərəfi bu hadisələr zamanı Ermənistandakı bütün qüvvələri bölgəyə cəlb etmişdi. Ancaq əməliyyatlar zamanı Azərbaycan hərbi qüvvələrinin ön mövqedəki qüvvələrinin bir qismi cəlb edilmişdi. Azərbaycan Şəmkir korpusunu, Naxçıvandakı əlahiddə ordunu, hərbi təyyarələri bu əməliyyatlara cəlb etmədi. Bir sözlə, düşmənin səyləri heç bir nəticə vermədi”.

“Cəbhə xəttində aprel hadisələri zamanı həlak olan Azərbaycan hərbçilərinin meyitləri ermənilər tərəfindən təhqir olunub”. Bunu isə **hərbi prokurorun böyük köməkçisi, polkovnik Səfər Əhmədov** bu gün Milli Məclisdə keçirilən dinləmələrdə deyib. Hərbi prokurorluq rəsmisi bildirib ki, Azərbaycan tərəfinə təhvil verilmiş hərbi qulluqçularımızın meyitlərinə baxış zamanı meyitlərin təhqir edildiyi məlum olub. “Onlar öldükdən sonra meyitləri üzərində təhqiramiz hərəkətə yol verilib. Məsələn, bir neçə hərbi qulluqçunun qulaq seyvanı kəsilib, gözü çıxarılıb, qarın boşluğu yarılıb”. S.Əhmədov vurğulayıb ki, bununla bağlı Tərtər Hərbi Prokurorluğu tərəfindən cinayət işi başlanıb, hazırda istintaq aparılır.

**Müzakirələrin yekununda parlament diplomatiyasının beynəlxalq səviyyədə işinin gücləndirilməsinin zəruriliyi vurğulanıb.**

❑ **E.PAŞASOY**

# Bu ay əfv gözlənilmir - bəs amnistiya?

**Mirvari Qəhrəmanlı:** “Amnistiyanın olması çox qapılar açar”

**May ayında əfv ümidləri doğrulmadı. Aylar öncədən mayın ya 10-da, ya da 28-də sərəncamın imzalanacağı barədə xəbərlər dolaşırdı. Artıq 10 mayı geridə qoyduq, 28 maya isə ümidlər yoxdur. Bu ay əfv gözləmədiklərini deyən müvafiq qurumlar arqument olaraq, Novruz əfvini irəli sürürlər. Tez-tez əfv sərəncamlarının verilməsinin hüquqa zidd olduğunu düşünənlər də az deyil.**

Mayın 10-da bir qrup hüquq müdafiəçisinin keçirdikləri mətbuat konfransında da bu məsələyə toxunulub və bu ay əfvin olmayacağı barədə fikirlər səslənib.

Bütün bunların fonunda əfv gündəmdən çıxsa da, yerini amnistiya xəbərləri tutub. Belə ki, hakimiyyətin amnistiya verəcəyi barədə fikirlər formalaşıb. Hüquq müdafiəçilərinin açıqlamalarında da daha çox bu məsələyə diqqət ayrılır.



Mirvari Qəhrəmanlı

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı** əfv ətrafında səslənən təzadlı fikirlərlə bağlı qəzetimizə açıqlamasında bunları dedi: “Mayın 13-də İşçi Qrupuna daxil olan QHT-lərin konfransı oldu. Bir sıra müzakirələr aparıldı. Əfvlə bağlı fikirlər səsləndi. Daim demişəm ki, əfv prezidentdən asılıdır. Əfv Komissiyasından da çox şey asılıdır. Amma son vaxtlar bu qurum ya toplantı keçirmir, ya da yığışırlarsa bunu mətbuatdan gizli saxlayırlar”.

**Hüquq müdafiəçisi amnistiya məsələsinə də toxundu**: “Ölkədə çoxdandır amnistiya verilmir. Sizin qəzetə günlər öncə verdiyim açıqlamamın yenə də üstündə qalıram. Amnistiyanın olması çox qapılar açar. İstərdim ki, bu müraciəti parlamentə millət vəkili Mehriban Əliyeva etsin. Bu çox gözəl hal olardı. Həmin müraciətdə qadınlara xüsusi diqqət ayrılmasını istərdim. Çünki qadının yeri həbsxana deyil. Bundan əlavə, xarici təşkilatların diqqət mərkəzində olan siyasilərin də azad olunması ölkəmiz adına çox müsbət addım olardı. Düşünürəm ki, Mehriban xanımdan çox şey asılıdır. Mart əfvindən iki ay keçib. Xüsusilə, bu mövzuda. Humanist addım qanunla tənzimlənmir. Bunun üçün qanunda heç bir maddə yoxdur”.

❑ **Cavanşir ABBASLI**

# Çomağı yerə qoymaq olmaz!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**May 24 ildir hamımızda ikili hisslər doğuran, təzadlı bir aydır. Bu ay Cümhuriyyət günü kimi şərəfli, postsovet məkanında məxməri inqilab (14-15 may 1992) kimi parlaq təqvimlə yanaşı, əfsus ki, üzüntülü tarixlərdən də xali deyil. Məhz bu ayda Şuşa və Laçının işğalı ilə 20 %-lik ərazilərimizin zəncirvari itirilməsinin əsası qoyulub - strateji əhəmiyyətli Şuşanın getməsi avtomatik şəkildə Laçının, Laçının əldən çıxması isə bütövlükdə Dağlıq Qarabağın və daha 6 rayonun işğalına zəmin yaradıb.**

Bu günlər yenə də işğal səbəblərindən danışılacaq, müzakirələr, mübahisələr təzədən qızışacaq. Olsun. Ta o vaxta kimi mübahisə etməliyik ki, may məğlubiyyətlərinin əsl səbəbini hamılıqla əxz edək, özümüz üçün, indiki və gələcək nəsillər üçün “qaytanlayıb” tarix kitablarına salaq. Əks halda... unutqan xalqlar üçün tarix təkrarlanmağı sevir - unutmayaq.

Hərgah, baş səbəb çoxdan bəllidir: biz millət, dövlət olaraq nə Şuşa və Laçın uğrunda, nə də digər ərazilər uğrunda mübarizədə yetərli yekdillik və qətiyyət göstərə bilməmişik - hansı yekdillik və qətiyyəti ki, nəhayət, apreldəki 4 günlük müharibədə gördük: hakimiyyət də, müxalifət də, cəmiyyət də heç vaxt olmadığı qədər eyni hədəfə vurdu və əgər erməninin yalvarışı ilə atəşkəsə gedilməsəydi, yüzdə-yüz nəticə qat-qat möhtəşəm olacaqdı...

4 günlük savaşın müsbət mənada ən qiymətli ibrət dərslərindən biri və birincisi də budur. İş də ondadır ki, torpaqlarımız zamanında Azərbaycan xalqının guya az döyüşkən olması səbəbindən deyil, müstəsna olaraq daxili siyasi didişmələrdən, hakimiyyət uğrunda gedən rəqabətin ölkəni taqətdən salmasından, kəsəsi, başımızın özümüzə qarışmasından, hətta silahlı qüvvələrdə özünü göstərən ikitirəlikdən düşmənin məharətlə istifadə eləməsi nəticəsində gedib; düşmənin gücü həmişə daxili pərakəndəliyimizdən qaynaqlanıb.

Müxtəsəri, ərazilər uğrunda bir toplum, xalq və dövlət olaraq potensialımızı tam şəkildə heç vaxt ortaya qoya bilməmişdik əfsus ki. Buna bir yandan xarici güclər mane olubsa, o biri yandan özümüz özümüzə əngəl-kələf olmuşduq. Amma nə yaxşı ki, artıq buz qırılıb...

Kim nə deyir desin, Qarabağ, digər ərazilərimiz məhz deyilən əsas şərt təmin olunanda geri qaytarılacaq. Heç bir Rusiya amili, heç nə o zaman bizi saxlaya bilməyəcək. Bundan ötrü sadəcə, Qarabağ sevgisinin hər şeydən - bütün siyasi və qeyri-siyasi maraqlardan, hər cür maddi-biznes mənafeyindən, şəxsi iddia və ambisiyalardan, qrup maraqlarından uca tutulması kifayətdir.

Bu - pafos deyil, klassik qələbə reseptidir. Nahaq yerə deməyiblər ki, Qarabağı kim çox istəyirsə, sonda onun da olacaq. Hər şey Qarabağ naminə olanda Qarabağ da bizim olacaq! Torpaqları qaytarmağın ən qısa yolu torpağa təmənnasız, “qatqısı” olmayan saf və güclü sevgidən keçir! “Vətən sevgisi isə imandandır” - buyurub İslam Peyğəmbəri (ə).

Az öncə bir erməni ideoloqunun yazdığı da təsdiqlədi ki, onlar yenə monolitliyimizin kritik anda çat verəcəyi kimi xam xəyallara dalıblar. Yeri gəlmişkən, bu da xain erməni xislətinin təzahürüdür ki, aprel məğlubiyyətindən sonra onlar torpaqları boşaltmaq haqda düşünmək əvəzinə, yeni ərazilərin zəbti zəruriliyindən dəm vururlar.

Odur ki, sülh nağılları, danışıq imitasiyaları öz yerində, gərək biz bir an belə çomağı yerə qoymayaq. Əksinə, onu gündən-günə daha zəhmli və təsirli edək. İşğalçı sülhə meylli olsa belə, onun güclə təhdidi davam eləməlidir. Düşməni peşman eləməyin zamanı çoxdan çatıb.

4 günlük müharibədə işğalçıya böyük qisasın anonsunu artıq vermişik, kürkünə birə, canına vicvicə sala bildik. Davamı gəlməlidir. İlanı yarım-can buraxmaq olmaz! Qarşıdan isə iyun gəlir - hərbi cəhətdən bizə düşərli və uğuru bir ay (1992). İyun həm də mübarək Ramazan ayına təsadüf edəcək - şeytanın zəncirləndiyi, günahların yandırıldığı ay...

**Düşmən özünə gəlməmiş ondan qisasımızı alıb da revanş götürək və işğalçını həmişəlik zəncirləyək - təbii ki, ona kimi özü xoşluqla ram olmasa...**

# Sabiq spikerlə Tahir Əliyev arasında qarşıdurma


Tahir Əliyev

**Keçmiş müdafiə və daxili işlər naziri, sonradan dövlət gömrük komitəsinin sədri olmuş general Tahir Əliyev moderator.az-a müsahibəsində 1992-ci ildə bir neçə ay ölkə prezidenti səlahiyyətlərini icra edən Ali Sovetin keçmiş sədri Yaqub Məmmədova ittihamlar irəli sürüb. Qeyd edib ki, Y.Məmmədov prezident olmaq istəyirmiş və ondan dəstək ala bilmədiyi üçün onu 1992-ci il aprelin 25-də daxili işlər naziri vəzifəsindən azad edib.**

Y.Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında Tahir Əliyevin ittihamlarına sərt reaksiya verib. T.Əliyevin onun barəsində danışdıqlarının cəfəngiyat olduğunu deyib: "Tahir Əliyev elə o vaxtlar da səfeh-səfeh danışırdı. Məni də görəndə deyir ki, bağışla, üzr istəyirəm. İndi də dediklərinin hamısı yalan, sayaqlama, cəfəngiyyatdır".

**Yaqub Məmmədov, həmçinin Etibar Məmmədov haqqında da sərt fikirlər səsləndirib:** "Tahir Əliyev daxili işlər naziri kimi də işləyə bilmədi, getdi qoşuldu siyasətə. Etibar Məmmədovun-filanın dəstəsinə qoşuldu və axmaq-axmaq işlərlə məşğul oldu".

Y.Məmmədovun dediklərinə münasibət öyrənmək üçün dünən T.Əliyevlə əlaqə saxladıq. T.Əliyev öncə Y.Məmmədovun ünvanına qəzetdə yazılması mümkün olmayan təhqiramiz ifadə işlətdi. İfadələrinin qəzet və saytda yazılmasının etika baxımdan mümkün olmadığını onun nəzərinə çatdırdıqda isə bildirdi ki, Y.Məmmədovun hansısa mənasız fikirləri onu maraqlandırmır, vaxtı yoxdur ki, həmin mənasız fikirlərə zaman ayırsın: "Ona görə də nə danışır-danışsın".

Etibar Məmmədov isə moderator.az-a deyib ki, nə Tahir Əliyevin ittihamları, nə də Yaqub Məmmədovun ona cavabı ilə tanış olmadığı üçün hansısa fikir söyləməsi düzgün olmazdı:

"Onların nə dediklərini oxumamışam deyə indi heç nə deyə bilmərəm. Ümumiyyətlə, belə məsələlərə reaksiya vermək istəmirəm. Görünür, hər ikisi yaşlaşıb və belə danışmaqları da onunla bağlıdır".

❑ ETİBAR

# İqbal Ağazadənin seçki kampaniyasına müdaxilə məsələsi böyüyür

"Artıq işlə prokurorluq məşğuldur"


İqbal Ağazadə

**9 saylı Ağdaş seçki dairəsindən Ümid Partiyasının deputatlığa namizədi İqbal Ağazadənin namizədliyinin qeydə alınması üçün toplanan imzalar və digər sənədlər mayın 14-də 90 saylı DSK-ya təqdim olunacaq. Bu barədə "Yeni Müsavat"a açıqlamasında İqbal Ağazadə məlumat verib.**

İ.Ağazadənin dediyinə görə, onun seçki kampaniyasına müdaxilə və səlahiyyətli nümayəndələrinə qarşı qanunsuzluqlarla bağlı şikayət materialları Ağdaş Rayon Polis Şöbəsindən alınaraq Ağdaş Rayon Prokurorluğuna verilib: "Bu da o deməkdir ki, ibtidai araşdırma zamanı hüquq pozmalara rast gəlinib. Artıq işlə prokurorluq məşğuldur. O cümlədən partiya olaraq da səlahiyyətli nümayəndələrimiz baş verən qanunsuzluqlarla bağlı respublikanın daxili işlər nazirinə və baş prokurora müraciət ediblər. Həmçinin MSK-ya təxminən 5 şikayətimiz göndərilib. Dairə Seçki Komissiyasına şikayətlərimiz verilib. Proses davam edir".

**İ.Ağazadə 90 saylı Dairə Seçki Komissiyasının faktiki olaraq öz vəzifəsini yerinə yetirmədiyini, rayon icra hakimiyyətinin başçısının birinci müavinindən asılı olduğunu vurğuladı:** "Əslində Dairə Seçki Komissiyası formalaşarkən MSK Seçki Məcəlləsinin tələblərini nəzərə almalı idi. Düzdür, Seçki Məcəlləsində məsələ imperativ şəkildə qoyulmayıb, amma MSK nəzərə almağa borclu idi ki, 90 saylı dairədə 1 noyabrda keçirilən seçkinin nəticələri qanunsuz hallara görə ləğv edilib. Ona görə də DSK köhnə tərkibdən təşkil olunmamalı idi. Bu adamlar bir dəfə seçkini düzgün keçirə bilməyiblər. İndi də DSK öz funksiyasını yerinə yetirə bilmir, rayon icra hakimiyyəti başçısının birinci müavinindən asılıdır. Birinci müavin isə deputatlığa namizəddir. DSK deputatlığa namizəd olan icra başçısının birinci müavini Cavid Osmanovun nəzarəti altında fəaliyyət göstərir. Şikayətləri hətta belə, götürməkdən qorxur. Mayın 12-də bizə daxil olan məlumata görə, namizədlərdən biri dislokasiya olmayan yerdə imza yığıbmış. Həmin namizəd bunu biləndən sonra gedib imza vərəqələrini dəyişdirməyə, DSK ərizəsini götürməyib. Həmin namizəd bizə müraciət edib ki, mənim də hüquqlarımız pozurlar. Biz onunla da görüşəcəyik və işləri koordinasiya edəcəyik. DSK adi bu prosedur qaydanı həyata keçirmir".

❑ E.SEYİDAĞA

# İsgəndər Həmidovdan "Ayaz Mütəllibov dövlət çevrilişi etmişdi" bəyanatı

## "Mənim nazir təyin olunmaq fərmanımı İsa Qəmbər yox, Yaqub Məmmədov vermişdi"

**Keçmiş SSRİ respublikaları sırasında ilk məxməri inqilabdan 24 il keçir. 1992-ci ilin martında prezident vəzifəsindən istefa verən Ayaz Mütəllibov 1992-ci il mayın 14-də qəflətən ətrafına güc toplayaraq geri dönmüş və Ali Sovetin tribunasından özünü prezident elan etmişdi.**

Mütəllibovun bu qayıdışı o dövrdə müxalifətdə olan Azərbaycan Xalq Cəbhəsinin çox ciddi təzyiqi ilə qarşılaşmışdı. AXC-nin təşkilatçılığı ilə Ali Sovetin qarşısında mitinqlər başlanmış və mayın 15-də Mütəllibovun ikinci dəfə gedişinə nail olunmuşdu. O vaxtdan indiyə qədər Mütəllibov dəfələrlə bəyan edib ki, onu Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətdən uzaqlaşdırıb. Aradan 24 il keçib eks-prezident və tərəfdarları hələ də bu fikirdə qalırlar.


İsgəndər Həmidov

**14-15 may hadisələrinin ən aparıcı fiqurlarından olmuş keçmiş daxili işlər naziri İsgəndər Həmidov isə "Yeni Müsavat"a bu barədə açıqlamasında bildirdi ki, 1992-ci ilin mayın 15-də AXC-nin dövlət çevrilişi etdiyi barədə iddialar yanlışdır:** "Əslində dövlət çevrilişini Ayaz Mütəllibov mayın 14-də həyata keçirmişdi. Ayaz Mütəllibov 1992-ci ilin martında səhhətinə görə prezident vəzifəsindən istefa vermişdi. Prezident səlahiyyətini Ali Sovetin sədri Yaqub Məmmədov həyata keçirirdi. Təxminən iki ay sonra-mayın 14-də Ayaz Mütəllibov qəfildən geri dönərək güc yolu ilə Ali Sovetin binasına daxil olmuş və hakimiyyətə qayıtdığını elan etmişdi. O zamankı konstitusiyada istefa vermiş prezidentin sonradan geri qayıdıb özünü prezident elan etməsi nəzərdə tutulmurdu. Mütəllibov isə həmin addımı atmaqla konstitusiyanı pozmuş və dövlət çevrilişi etmiş oldu. Ayaz Mütəllibov və tərəfdarları açıq-aşkar şəkildə dövlət çevrilişi etmişdilər. Ölkədə dövlət çevrilişi həyata keçirildiyini görən xalq və onun aparıcı qüvvəsi Xalq Cəbhəsi Konstitusiyanın bərpasına nail olmaqdan ötrü Ali Sovetin qarşısına yürüş-mitinq elədi. Bu yürüş-mitinq dövlət çevrilişi deyildi, dövlət çevrilişinin qarşısını almaq cəhdi idi. Xalqın etirazı ilə Ayaz Mütəllibov cəmi bircə gün sonra getməli oldu. Ayaz Mütəllibovun ölkədə dövlət çevrilişi etməsinə etiraz eləyən xalqın ön sıralarında getdiyimizə görə biz qətiyyən heç vaxt peşmançılıq hissi keçirməmişik".

İ.Həmidov onu da qeyd etdi ki, AXC-nin 15 mayda gedişindən sonra-mayın 17-də hakimiyyətə gəldiyi barədə deyilənlər düzgün yanaşma deyil: "Əvvəldən nəzərdə tutulduğu kimi prezident seçkiləri iyunun 7-də keçirildi. AXC-nin namizədi Əbülfəz Elçibəy prezident seçiləndən sonra AXC hakimiyyətə gəldi. Ayaz Mütəllibovun mayın 15-də gedişindən bir gün sonra Yaqub Məmmədov Ali Sovetin sədri vəzifəsindən istefa verdi və mayın 17-də deputat İsa Qəmbər səsvermə ilə Ali Sovetin sədri seçildi. Bunu bizim-AXC-nin hakimiyyətə gəlişi saymaq yanlışdır. İsa bəy prezident səlahiyyətlərini icra etsə də, Xalq Cəbhəsi hakimiyyətdə deyildi. Xalq Cəbhəsi Elçibəyin prezident seçilməsi və Elçibəyin yeni hökumət formalaşdırması, yeni təyinatlar həyata keçirməsi ilə hakimiyyətə gəldi. İsa Qəmbər prezident səlahiyyətlərini icra etdiyi 1 aya yaxın müddətdə heç bir yeni nazir təyinatı həyata keçirməmişdi. Əvvəlki hökumət yerində qalırdı. İsa bəy prezident səlahiyyətlərini icra etdiyi dövrdə hökumətdə onun yeganə kadrı daxili işlər naziri olaraq mən idim. Qalan bütün nazirlər, komitə sədrləri əvvəldən işləyənlər idi. Onlar Əbülfəz bəy prezident seçiləndən sonra dəyişdirildi. Mənim özüm belə, İsa Qəmbərin fərmanı ilə nazir təyin olunmamışdım. Mənim daxili işlər naziri təyin olunmağım barədə fərmanı Yaqub Məmmədov istefa verməmişdən öncə-mayın 16-da vermişdi. Bu Xalq Cəbhəsi ilə danışıqlar nəticəsində atılan addım idi".

❑ E.SEYİDAĞA

# "Bıçaq sümüyə dirənib"

## Yaqub Məmmədov: "1992-ci ildə indikindən çox fərqli vəziyyət var idi"

**Azərbaycan Xalq Cəbhəsinin 1992-ci ildə hakimiyyətə gəlişindən öncə Ali Sovetin sədri olan və prezident səlahiyyətlərinin müvəqqəti icra edən Yaqub Məmmədov həmin dövrdəki vəziyyətlə aprelin əvvəlində cəbhədə baş verən 4 günlük müharibə zamanı müşahidə olunan vəziyyəti müqayisə edərkən maraqlı fikirlər söyləyib.**


Yaqub Məmmədov

"Yeni Müsavat"a açıqlamasında Yaqub Məmmədov bildirdi ki, ordumuz aprelin əvvəlində Qarabağ cəbhəsində qəhrəmanlıq göstərib, Azərbaycan ordusu mühüm yüksəklikləri azad etməklə ermənilərə möhkəm dərs vermiş oldu: "Ermənistana və onun arxasında dayanan havadarlarına göstərdik ki, biz torpaqlarımızın işğalda saxlanması ilə barışmayacağıq, o torpaqları güc yolu ilə azad etməyə qadirik. Çox qürur duyuram ki, Azərbaycan ordusu güclü orduya çevrilib. 1992-ci ildə Azərbaycanın indiki kimi nizami, güclü ordusu, müasir hərbi texnikası, Qarabağ məsələsində müxalifətlə-iqtidar arasında birlik olsaydı əminəm ki, ermənilər bir qarış da olsun torpağımızı işğal edə bilməzdilər. 1992-ci ildə indikindən çox fərqli vəziyyət var idi. O dövrkü vəziyyətlə indiki vəziyyəti, o zamankı imkanlarla indiki imkanları, o vaxtkı iqtidar-müxalifət münasibətləri ilə indiki iqtidar-müxalifət münasibətlərini heç cür müqayisə eləmək bel, mümkün deyil. O dövrdə müxalifət birmənalı şəkildə hakimiyyəti qəbul eləmirdi, Qarabağ kartından hakimiyyətə qarşı, hakimiyyəti yıxmaq üçün istifadə olunurdu. O dövrdə müxalifətin yanaşması belə idi ki, Qarabağda vəziyyət nə qədər pis olsa hakimiyyəti sıxışdırmaq, laxlatmaq və yıxmaq üçün bir o qədər yaxşıdır. Ancaq indi aprel döyüşlərində tamamilə müsbət yöndə fərqli vəziyyəti gördük. Çox şükürlər olsun ki, müxalifət Qarabağ məsələsində hakimiyyətlə eyni mövqedən çıxış etdi. Bu dəfə Qarabağ savaşında dövlət-hakimiyyət-müxalifət-xalq birliyi ortaya qoyuldu. Siyasi mövqeyindən asılı olmayaraq hər kəs vahid mövqedən çıxış etdi. Bu məqam da mən də torpaqlarımızın azad olunacağına ümidi daha da artırıb".

**Y.Məmmədov hesab edir ki, Qarabağla bağlı danışıqların bundan sonra əvvəlki kimi uzanmayacaq:** "Azərbaycan dövləti, ordusu qətiyyət göstərir. Aprel savaşı status-kvonu dəyişib. Bundan sonra səmərə verməyəcək danışıqlar uzanmayacaq. Ona görə də düşünürəm ki, yaxın vaxtlarda ya danışıqlarla, ya da hərbi yolla torpaqlarımız azad olunacaq. Çünki artıq bıçaq sümüyə dirənib. Bəzi vətəndaşlar aprelin əvvəlindəki hərbi əməliyyatları heç nəyə baxmadan davam etdirməyin doğru olduğunu qeyd edirlər. Nəzərə almaq lazımdır ki, hər halda ölkə rəhbərliyi vəziyyəti daha yaxşı bilir. Atəşkəs təkliflərinə müsbət cavab verilməsi Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin güclənməsinə təsir göstərir. Dünya gördü ki, Azərbaycan əslində müharibə tərəfdarı deyil. Azərbaycanı Ermənistan və işğalçının havadarları zorla müharibəyə cəlb edir".

❑ ETİBAR

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Azərbaycanın eks-prezidentindən ilginc açıqlamalar və sərt ittihamlar

## Ayaz Mütəllibov: "Məni bu məsələyə daxil eləyən adamın başı yoxdur"

**Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibov uzun fasilədən sonra "Yeni Müsavat"a müsahibə verib. Qarabağ ətrafında baş verənlər, qarşıdakı Vyana görüşü ilə bağlı gözləntilərdən başlayan söhbətimizin sonrakı bölümündə 90-cı illərin əvvəllərinə ekskurs etdik və eks-prezident ilginc fikirlər söyləməklə yanaşı, xeyli sərt fikirlər söylədi.**

***- Ayaz müəllim, Qarabağ ətrafında ciddi proseslərin cərəyan etdiyi bir dövrdə sizin susmağınız heç yaxşı görünmür. Niyə mətbuatdan məsafə saxlamağı üstün sayırsınız?***

- Təəssüflər olsun ki, elə adamlar tapılır buna başqa rəy verirlər.

***- Yəqin sizin də ən böyük arzunuz Azərbaycan ərazilərinin işğaldan azad olunmasıdır...***

- Ona şübhə yoxdur.

***- Uzun fasilədən sonra Azərbaycan və Ermənistan prezidentlərinin Vyana görüşü gözlənilir. Sizin gözləntiləriniz nədən ibarətdir?***

- Mən onu gözləyirəm ki, bu danışıqların nəticəsində ermənilər bizim zəbt olunan rayonlarımızı qaytaracaqlar.

***- Yəni bu dərəcədə nikbinsiniz?***

- Bəli, mən belə düşünürəm. Çünki çox hadisələr bunu göstərir. Çoxları gözləmirdi ki, Azərbaycan hücuma keçsin, qüvvəsini göstərsin. Ona görə indi bir zəmin yaratmışıq və bunun əsasında danışıqlar getməli, rayonlar şərtsiz qaytarılmalıdır.

***- Ancaq erməni tərəf fərqli mövqedədir, aqressiya davam edir, hətta Azərbaycanın içərilərindəki obyektləri vuracağı ilə hədələyir...***

- Güman edirəm ki, bu, daxili auditoriyaya hesablanıb və sadəcə, təbliğat üçündür.

***- Sərkisyan rejimi elə vəziyyət yaradıb ki, erməni ictimaiyyəti də güzəştə meylli görünmür.***

- Mən də bu fikirlə razıyam.

***- Elə isə Sərkisyan güzəştlərə imza ata bilərmi? Belə olan təqdirdə onu gözləyənləri göz önünə alırmı?***

- Nə deyim vallah. Reallığa nəzər salsa, özü öz taleyini müəyyənləşdirməlidir.

***- Ayaz müəllim, beynəlxalq güclər, xüsusilə həmsədr dövlətlər Azərbaycan ərazilərinin qaytarılmasını istəyirmi?***

- Bunların mövqeləri fərqlidir. Ruslar Azərbaycanla bağlı elə bir mövqedə dayanıblar ki, buradan onların milli təhlükəsizliyinə xəta gəlməsin. Yəni Azərbaycanda Qərbin dayaqları o qədər də çox olmasın. Qərb də ki, öz yolu ilə gedir, yəni keçmiş respublikaların Rusiyanın nüfuz dairəsinə keçməsinə etiraz edir.

***- Bu gün NATO tankları Gürcüstan və Moldovadadır, bu ölkələrdə hərbi təlimlər keçirilir. Alyansın Rusiyanın sərhədlərinə yaxınlaşması nə vəd edir? Belə bir situasiyada toqquşmalar realdırmı?***

- Aydındır ki, Rusiya öz mövqeyini müdafiə edəcək. Hansı şəkildə, bunu demək çətindir. Ancaq biganə qalmayacaq. Mən güman etmirəm ki, NATO qoşunları sonadək keçmiş SSRİ məkanında qalsın.

***- Qarabağ məsələsinin həlli ilə bağlı 5+2 formulundan çox danışılır. Söhbət 5 rayonun azadlığının qarşılığında rus sülhməramlılarının bölgədə yerləşdirilməsindən gedir. Yəqin ki, sizin prezidentliyiniz dövründə də Rusiya hansısa vədlər olub. İndi siz də bunu Azərbaycana qarşı tələ sayırsınızmı?***

- Rus qoşunları vaxtilə SSRİ qoşunlarının bir hissəsi kimi bölgədə yerləşirdi. Ancaq indi vəziyyət başqadır. Siyasi razılığa gəlməsək, nə isə baş verməməlidir. Əsas məsələ siyasi anlaşmadır. Vasitəçilərin iştirakı ilə razılığa gəlinməlidir, ondan sonra danışmaq olar. Tarixi təcrübə göstərir ki, sülhməramlı qüvvələr o qədər də effektiv olmur.

***- Yəni siz də hesab edirsiniz ki, rus sülhməramlılarının Qarabağda yerləşdirilməsi Azərbaycan üçün təhdiddir?***

- Bəli.

***- Bəs, rayonların mərhələli qaydada geri qaytarılması təkliflərinə razılaşmaq olarmı? Bəzən deyilir ki, bu, bizi tələyə salmaq üçün ortaya atılır...***

- Olar təbii ki. Tələyə-zada salmaz. Regiondakı hadisələrə yeni təkan verər.

***- Yuxarıda dediniz ki, Vyana görüşündən yüksək nəticə gözləyirsinzi. Əgər bu, baş verməsə...***

- (sualı yarımçıq kəsir) Yox. Mən Vyana görüşündən yüksək nəticə gözləmirəm. İstərdik ki, nəticə olsun, ancaq dəqiq deyə bilmərəm. Görək danışıqlar hansı istiqamətdə gedəcək, mətbuata nə sızdırılacaq. Ondan sonra şəxsən mən bu barədə daha konkret fikir bildirə bilərəm. Ancaq ehtimallar var.

***- Ehtimallardan biri də budur ki, nəticə əldə olunmasa, böyük savaş başlaya bilər...***

- Onu istisna etmək olmaz.

***- Siz də o fikirdəsinizmi ki, Azərbaycan daha bir neçə il gözləməməli, torpaqlarını hərbi yolla azad etməlidir?***

- Azərbaycanın buna tam ixtiyarı var. Qarabağ Azərbaycanın torpağıdır. Biz BMT-nin tərkibinə konkret sərhədlərimiz daxilində qəbul olunmuşuq. Ona görə ora Azərbaycan əraziləridir. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu məsələ danışıqlar yolu ilə həll oluna bilər.

***- Ancaq belə yanaşma da var ki, Ermənistan atəşkəs haqqında razılaşmaya əməl etmədiyi üçün Azərbaycan danışıqların sıfır variantına qayıtmalı, referendum güzəştindən də imtina etməlidir. Razılaşırsınızmı?***

- Bəli, təbii ki.

***- Azərbaycan genişmiqyaslı əməliyyatlara başlasa, Rusiyanın müdaxiləsi mümkündürmü?***

- Bu suala dəqiq cavab verə bilmərəm. Təhlükəni istisna etmək olmaz.

***- Söhbətimiz 14-15 may hadisələrinin 24-cü ildönümünə təsadüf edir. Bu gündən baxanda hansı qənaətə gəlirsiniz, bəlkə hakimiyyətə bir neçə saatlıq qayıtmaq niyyətinə düşməsəydiniz, həm özünüzün, həm də ölkənin vəziyyətinin bu qədər ağırlaşmasına səbəb olmazdınız...***

- Yox, mənim hakimiyyətə qayıdışım ölkəyə zərər gətirməzdi, əksinə, ölkənin xeyrinə olardı. Hakimiyyətdə olmadığım vaxtlarda gördünüz Azərbaycanda nə baş verdi, torpaqlar getdi, bir-birimizə qarışdıq, düşmən də bu situasiyadan yararlandı. Ona görə də bu gün bir az ehtiyatlı olmalıyıq.

***- O zaman iddialar var idi ki, Ayaz Mütəllibov hakimiyyətə qayıtsaymış, Rusiya da Şuşanı qaytaracaqmış. Bu, nə dərəcədə həqiqətdir?***

- Bəli, bu söhbətdə reallıq var idi. Özü də bu məsələ təkcə Şuşaya aid deyildi, ümumiyyətlə, Dağlıq Qarabağa aid idi.

***- Rusiyanın marağı nə idi ki, Dağlıq Qarabağı məhz sizin prezidentliyiniz olduğunuz zaman qaytarmaq istəyirdi? Əgər doğrudan da qaytarmaq istəsəydi, elə prezident olduğunuz zaman qaytarardı...***

- Rusiya məni müdafiə etməyib, əksinə, məni hakimiyyətdən aşırmaq üçün Rusiyadakı bəzi qüvvələr də çalışıb. Dağlıq Qarabağın Azərbaycana qaytarılması barədə marağın yaradılması ilk növbədə Azərbaycan tərəfin borcu idi. Ruslar elə indinin özündə də burada müxtəlif təşkilatların yaradılmasına çalışır, təşəbbüslər göstərirlər. Biz buna da diqqətlə yanaşmalıyıq. Dəfələrlə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlüyünə dəvət olunmuşuq. Şərt də bu ola bilərdi. Bu məsələ indi də ruslar üçün aktualdır.

***- Azərbaycan indiki situasiyada torpaqların azadlığının qarşılığında KMTM-ya, yaxud Avrasiya Birliyinə qoşula bilərmi?***

- O baxır biz hansı marağı əsas tuturuq. Torpaqlarımızın azad olunmasını əsas tuturuqsa, burada güzəştlərə getmək olar. Ancaq əvvəlcə ərazilər geri qaytarılmalıdır.

***- Belə anlaşıldı ki, o zaman sizin hakimiyyətə qayıdışınızın müqabilində bu şərtlər olub, eləmi?***

- Yox, mənə bu barədə deməyiblər. O vaxt mənimlə söhbət aparılmayıb. Mənim mövqeyim o idi ki, Azərbaycanın ərazi bütövlüyü şərtsiz bizim xeyrimizə həll olunmalı idi. Elə bunun əngəlinə şəxsən özüm düşdüm. Çoxları deyir ki, Ayaz Mütəllibov rusmeyilli adamdır. Ancaq mənim istefaya getməyimdə, baş verən hadisələrin hamısında Moskvanın bəzi dairələrinin əli var idi. Adlarını çəkmək istəmirəm, ancaq bu adamlar indi də yaşayırlar.

***- Çox maraqlıdır. Lakin siz uzun illər "sizi hakimiyyətdən devirənlərin" ölkəsində yaşadınız...***

- Mənim maddi cəhətdən elə böyük imkanım yox idi ki, dünyanı gəzim. Mən 1992-ci ildən Moskvada məskunlaşan və indi orda yaşayan azərbaycanlılardan heç nə ilə fərqlənmirdim. Adi azərbaycanlı kimi yaşayırdım.

***- Azərbaycandakı "beşinci kolon"dan çox danışılır. Hətta sizi də bu sıraya daxil edirlər. Azərbaycanda "beşinci kolon" nə dərəcədə güclüdür?***

- Məni bu məsələyə daxil eləyən adamın başı yoxdur. Bu, sirf böhtandır, ağılsız sözlərdir.

***- Bəs, Azərbaycanda belə bir qüvvə varmı?***

- Mən ona cavab verə bilmərəm. Bu, mənim işim deyil.

***- Ayaz müəllim, elə sizinlə danışmişkən bir məsələyə münasibətiniz öyrənmək istəyirəm. Bu günlərdə videokadrlar yayıldı, orada sizin hakimiyyətiniz dövründə qaldırılan yaş senzindən də bəhs edilir. O zaman da deyilirdi ki, qanuna dəyişiklik etməklə siz Heydər Əliyevin hakimiyyətə gəlişinə mane olmağa çalışmışınız. Həmin layihənin müəllifi kim idi?***

- Vallah sözün doğrusu, heç yadıma da gəlmir ki, bu məsələ ilə şəxsən mən məşğul olmuşam. Ali Sovetdə belə danışıqlar var idi, ancaq mənim rəyim olmadan. Çünki demokratiyaya uyğun olmayan qərar olardı, əgər biz onu qəbul etsəydik. Yəni yaş senzi ola bilməz.

***- Xahiş edirəm, səmimi deyəsiniz, 24 il əvvəl Laçın rayonunun işğal olunmasında sizin hakimiyyətə qayıdış cəhdiniz nə dərəcədə rol oynadı?***

- Xeyr, bu məsələnin heç bir rolu olmayıb.

***- Ancaq iddialar var ki, o zaman sizin hakimiyyətə gəlişinizin qarşısını almaq istəyən cəbhəçi qüvvələr Bakıya axın etməsəydi, Laçın da müdafiəsiz qalmazdı...***

- Yox, yox, o düz deyil. Mən vəzifəmdə olsaydım və müxalifətlə, cəmiyyətlə birlikdə başlıca məqsədimizi, torpaqlarımızın azadlığı uğrunda çalışsaydıq, xeyli iş görə bilərdik. Qarabağ erməniləri, Ermənistan, erməni lobbisi, erməniləri dəstəkləyən Moskva siyasətçiləri, hakimiyyət nümayəndələri hamısı mənə qarşı idi. Mən tək bunlarla necə bacara bilərdim? Halbuki, arxamdan da özlərini müxalifət qüvvələri adlandıranlar mənə zərbə vururdular.

***- Ancaq siz 3 ay əvvəl istefa verməklə yaxşı nümunə qoymuşdunuz, bəlkə də təkrar qayıdışınız doğru qərar deyildi. Qayıtmasaydınız, bəlkə də hadisələr ayrı səmtdə inkişaf edərdi...***

- Mən istefamı vermişəm. Çünki mənim istefam Xocalı hadisələrilə bağlı idi. Mən ona heç cür yol verə bilməzdim. Əsas məsələ bu idi. Adımı böhtanlardan təmizləmək istəyirdim.

***- Amma qayıdışınız vəziyyəti mürəkkəbləşdirdi.***

- Nəyi mürəkkəbləşdirdi, nəyi?!

***- Zəhmət olmasa, o hadisələri xatırlayın. Bəlkə ozamankı hakimiyyətlə əməkdaşlıq etsəydiniz, Laçın kimi böyük bir rayon da işğal olunmaz, Ermənistanla Dağlıq Qarabağ arasında dəhliz açılmazdı...***

- (Qeyzlənir) Ə, nə əməkdaşlıq e? (Bu yerdə təhqiramiz ifadə işlədir) Vəziyyətdən istifadə edib meydana çıxan adamlar müxtəlif işlərlə məşğul idilər. Qarşılarına da məqsəd qoymuşdular ki, nəyin bahasına olursa-olsun hakimiyyəti götürməliyik, yoxsa Ayaz Mütəllibov Qarabağ məsələsini həll etsə, ömrü boyu oturacaq vəzifədə. Bunu deyənlər indi də sağdırlar.

***- Bu, sizin dediklərinizdir. Amma qarşı tərəfin arqumentləri tam fərqlidir.***

- Qarşı tərəfin fikri məni maraqlandırmır!

❑ Elşad PAŞASOY

**"Mənim istefaya getməyimdə, baş verən hadisələrin hamısında Moskvanın bəzi dairələrinin əli var idi"**



**"Çoxları deyirlər ki, Ayaz Mütəllibov rusmeyilli adamdır"**

**"Qarşılarına da məqsəd qoymuşdular ki, nəyin bahasına olursa-olsun hakimiyyəti götürməliyik, yoxsa Ayaz Mütəllibov Qarabağ məsələsini həll etsə, ömrü boyu oturacaq vəzifədə"**

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Mahmudovun çökdürdüyü iş adamlarından biri öldü, biri də sabiq naziri söydü

## “Hafka”: “...alçaq oyunları sayəsində mənim biznesimə sarsıdıcı zərbə vuruldu”

**Eldar Mahmudov tutduğu vəzifədən qovulmasından ötən aylar ərzində onlarla iş adamının çökdürülməsində MTN çetesinin rolunun olması üzə çıxıb. Belə iş adamlarından biri də “Hafka” kimi tanınan keçmiş oliqarx Hafiz Məmmədovdur.**

Paris məhkəməsi “Lans” futbol klubunun səhmlərinə nəzarət Hafiz Məmmədova məxsus RLS Holding şirkətini müflis elan edib. Bununla da “Hafka” iki il əvvəl aldığı “Lans” klubu üzərində mülkiyyət hüququnu itirib. Məhkəmənin belə qərar verməsinə səbəb “Hafka”nın müflis olması nəticəsində onun klub qarşısında öhdəliklərini yerinə yetirə bilməməsidir. Hafiz Məmmədov “Lans” klubunun büdcəsinə 5 milyon 600 min avro vəsaiti ödəyə bilməyib. Xatırladaq ki, o, “Lans”ın səhmlərinin üçdə ikisini 20 milyon avroya almışdı, daha sonra biznesmen kluba 6 milyon avro da yatırım qoymuşdu. Lakin klubu alandan az sonra “Hafka”nın “Baghlan Group” şirkəti müflis olub və oliqarxın biznesi çöküb. Nəticədə o, Fransa klubuna sponsorluq etmək imkanlarını itirib. Fransa mətbuatının yazdığına görə, “Lans”ın yeni sahibi Kot-d İvuardan olan biznesmen, CKG şirkətlər qrupunun sahibi Çarlz Kader Qura olacaq. O, “Lans”ın inkişafına 30 milyon avro yatırmağa və 5 milyon 600 min avroluq borcunu ödəməyə hazırdır. Hafiz Məmmədov isə bu sövdələşmədən heç nə əldə edə bilməyəcək. Çünki onun şirkəti məhkəmə tərəfindən müflis elan edilib və biznesmen məhkəmə qaydasında kluba mülkiyyət hüququnu itirib. “Lans”a afrikalı biznesmenlə yanaşı “Atletico” klubunun sahibləri də iddia edir. Klubun taleyi mayın sonlarına qədər həll olunmalıdır. H.Məmmədov virtualaz.org saytına açıqlamasında “Lans”ı itirdiyini təsdiqləyib və bunu həyatında “ən faciəli günlərdən biri” adlandırıb. “Təəssüf ki, artıq bizim üçrəngli bayrağımız artıq "Lans"ın üzərində dalğalanmır. İki il boyu mən bütün qapıları döydüm, kömək istədim, ancaq bütün kabinetlərdə mənə rədd cavabı verdilər. Axı bu təkcə Hafiz Məmmədovun yox, bütün ölkənin şərəfi idi! Təəssüf ki, keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun və onun qudası Cahangir Hacıyevin çirkin, alçaq oyunları sayəsində mənim biznesimə sarsıdıcı zərbə vuruldu. Bu işdə bəzi başqa məmurlar və biznesmenlər də iştirak etdi" - H.Məmmədov deyib. “Hafka”nın bildirdiyinə görə, ona borclu olan bəzi adamlar və şirkətlər də vədlərinə xilaf çıxıblar, borclarını ödəməyiblər. “Mənim bütün şirkətlərim defolta yuvarlandı, banklarla problem başladı. Bu situasiyada klubu əldə saxlamaq üçün mənə kömək etməli idilər. Mən klubu Azərbaycanın istənilən oliqarxına güzəştə getməyə hazır idim, ancaq heç kim razılaşmadı. Beləliklə, biz "Lans"ı itirdik" - H.Məmmədov kədərlə bildirib.


Hafiz Məmmədov

### Mahmudovun çetesinin çökdürdüyü iş adamı özünü asıb

Sabunçu rayonu, Maştağa qəsəbə sakini, iş dünyasında Əlihüseyn Maştağalı kimi tanınan iş adamı özünü asıb. 1995-ci ildən iş dünyasında olan 46 yaşlı Əlihüseyn Maştağalı əvvəllər “kolbasa işi” ilə məşğul olub. Daha sonra siqaret və spirtli içki alverinə girişib. Əlihüseyn əsasən xarici ölkələrdən ölkəyə spirtli içkilər və siqaret gətirməklə məşğul olub və iş adamları arasında da xeyli hörmətə sahib olan şəxs imiş. O, ölkədə fəaliyyət göstərən digər iş adamları üçün də siqaret və spirtli içkilər gətirməklə məşğul olub. Ancaq MTN-in sabiq şefi Eldar Mahmudovun ölkədəki digər iş adamları kimi incitməsi bu şəxsdən də yan keçməyib. Deyilənə görə, ilyarım bundan öncə E.Mahmudovun adamları Əlihüseynin nə az, nə çox düz yarım milyon manatını alıblar. İddialara görə bundan əlavə olaraq, bir neçə dəfə ondan külli miqdarda pul alınıb. İş bununla bitməyib, E.Mahmudovun adamları onun biznes fəaliyyətinə mane olmağa başlayıblar. Ə.Maştağalı ölkəyə təkcə özü üçün deyil, digər iş adamları üçün lazım olan spirtli içki və siqaret gətirib. İş adamları ona külli miqdarda pul veriblər ki, onlarla mal gətirsin, ancaq onun fəaliyyətinə maneçilik törədildiyindən iş adamlarına vaxtında mal gətirə bilməyib. Əlində olan pulu isə məcburiyyətdən başqa işlərə xərcləyib. Bundan sonra Əlihüseyn müflisləşib və borca düşüb. Yarım milyon manatlıq soyğuna məruz qalmış iş adamı banklardan külli miqdarda kredit götürüb, sonradan isə borcu ödəyə bilməyib. Çıxış yolunu isə boynuna kəndir salıb həyatdan köçməkdə görüb...

❑ E.HÜSEYNOV

# Vəkillər Kollegiyası daha bir tanınmış vəkillə məhkəmədə üz-üzə gəldi

## Müzəffər Baxış: “Bu iddia Ramiz Rzayev haqda söylədiyim həqiqətə söykənən, dəqiq, dürüst fikirlərimlə bağlıdır”

**Nərimanov Rayon Məhkəməsində Vəkillər Kollegiyasının Rəyasət Heyətinin təqdimatı üzrə vəkil Müzəffər Baxışın vəkillik fəaliyyətinə xitam verilməsi barədə iddiaya baxılır. Artıq iş üzrə hazırlıq iclası keçirilib. Məhkəməyə hakim Gültəkin Əsədova sədrlik edib. Hazırlıq iclasında məlum olub ki, iddia səhv verilib. Belə bir iddia ilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti deyil, Vəkillər Kollegiyası çıxış edə bilər. Vəkil bunu VK-nın Rəyasət Heyətinin hüquqi şəxs deyil, hüquqi şəxsin idarəedici orqanı olması ilə əsaslandırıb. O deyib ki, qanunvericiliyə görə, iddiaları hüquqi şəxslər qaldıra bilər, onların idarəedici orqanları müstəqil iddialar verə bilməzlər.**

M.Baxış vəkilləri müdafiə etməli bir orqan tərəfindən məhkəməyə verilməsi ilə bağlı “Yeni Müsavat” əməkdaşına bunları deyib: “Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkil səlahiyyətlərimə xitam verilməsi üçün məni məhkəməyə verib, vəkil kimi fəaliyyətimi dayandırıblar. Bu iddia qanunsuz və əsassızdır. Bu iddia **Ali Məhkəmənin sədri Ramiz Rzayev** haqda söylədiyim həqiqətə söykənən, dəqiq, dürüst fikirlərimlə bağlıdır. Azərbaycan prezidenti dəfələrlə deyib ki, cəmiyyətdə olan vəzifəli şəxslər tərəfindən törədilən qanun pozuntuları barəsində hər bir şəxs məlumat, siqnal verməlidir. Mən də KİV-də Ramiz Rzayevin korrupsiya hərəkətləri barəsində - yəni 12 noyabr 2015-ci ildə Ali Məhkəmədə kassasiya şikayətinə baxılarkən ciddi qanun pozuntusuna yol verilməsi haqda məlumat vermişəm. Həmin işə də hakim Tatyana Qoldmanın sədrliyilə baxılmışdı. O, heç bir hüquqi əsası olmayan qərar qəbul etmişdi. O işdəki tərəflərdən biri Müdafiə Nazirliyinin keçmiş stomatoloji poliklinikasının rəisi Fərhad Hacıyev idi. Məndə də dəqiq məlumat vardı ki, Fərhad Hacıyev Ali Məhkəmənin sədri Ramiz Rzayevin şəxsi diş həkimidir və Ramiz Rzayevin göstərişi ilə onun xeyrinə qərar verilmişdi. 2015-ci il noyabrın 17-də moderator.az saytına açıqlamada bunu demişdim. Bunu əsas tutaraq, barəmdə Vəkillər Kollegiyasına müraciət olunmuşdu. Həmin sayta dediklərim tam olaraq həqiqəti əks etdirir. Ramiz Rzayev belə qanunsuz əməllərlə məşğuldur. Tatyana Qoldman tərəfindən qəbul edilmiş həmin qərarla tanış olan hər bir şəxs qanunsuz və əsassız olduğuna tam əmin olacaq. Məni məhz həmin fikirlərimə görə Ramiz Rzayevin sifarişi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyətini öz təsiri altına keçirən Azər Tağıyev vasitəsi ilə təqib edirlər”.


Müzəffər Baxış

**Tanınmış vəkilin işi üzrə məhkəmə baxışı 23 may saat 15:00-a təyin olunub. M.Baxışa qarşı iddiaya mərkəzi ofisi Cenevrə şəhərində yerləşən, 60-dan çox ölkəni özündə birləşdirən Beynəlxalq Hüquqşünaslar Komissiyası bəyanat verməklə münasibətini açıqlayıb. Bəyanatda deyilir:** “Beynəlxalq Hüquqşünaslar Komissiyası Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmə işlərində vəkillərin ifadə azadlığına hörmət edilməsinə çağırır. Beynəlxalq Hüquqşünaslar Komissiyası (BHK) vəkil Müzəffər Baxışın Vəkillər Kollegiyası üzvlüyündən xaric olunma işi ilə bağlı öz narahatlığını ifadə edir. BHK vəkillidən xaric edilmə ilə bağlı icraat zamanı vəkillərin rolu haqqında beynəlxalq standardlara hörmət edilməsinə və sanksiyaların ifadə azadlığına zidd tətbiq edilməməsinə çağırır... Beynəlxalq Hüquqşünaslar Komissiyası hesab edir ki, vəkillərin istər məhkəmə zalında, istərsə də digər yerlərdə məhkəmə sistemi haqqında səsləndirdiyi tənqidi fikirlərə görə tətbiq edilən intizam icraatları ifadə azadlığına qarşı müdaxilədir. Avropa İnsan Hüquqları Məhkəməsinin "Maurice Fransaya qarşı" işində bu məsələ xüsusilə vurğulanaraq bildirilir ki, iddialar xoş niyyətlə təqdim edilib və sübutlarla əsaslandırılıb".

❑ E.MƏMMƏDƏLİYEV

# Qulu Məhərrəmlinin həbs təhlükəsi sovuşmayıb

## Vəkil: “Onun mühakimə olunduğu maddələrin sanksiyasında həbs də var”

**Telejurnalist Qulu Məhərrəmlinin həbs təhlükəsi sovuşmayıb. AzTV-nin rəhbəri Arif Alışanovun xüsusi ittiham qaydasında məhkəməyə verdiyi Məhərrəmlinin işinə Yasamal Rayon Məhkəməsində baxılır. Növbəti prosesin nə vaxt olacağı məlum deyil.**


Qulu Məhərrəmli

Ətrafında cərəyan edən hadisələrlə bağlı “Yeni Müsavat”a açıqlamasında telejurnalist bunları dedi: “Məhkəmə qərar qəbul etmişdi ki, müsahibəm linqvistik ekspertizaya göndərilsin. Onlar vəsatət qaldırdılar ki, müsahibənin linqvistik ekspertizasını aparmaq üçün yüksək səviyyəli mütəxəssislərin cəlb olunmasına məhkəmə icazə versin. Çox güman ki, məhkəmə yaxın günlərdə bu vəsatətə baxıb, təmin edəcək. Vəziyyət hazırda bu şəkildə davam edir. Məhkəmənin gələn həftə olacağını sadəcə ehtimal edirik. Həbs təhlükəmin olub-olmamasını ən yaxşı vəkilim deyə bilər. Çünki o, proseslərin içərisindədir. Təhlükə ola da bilər, olmaya da”.

**Q.Məhərrəmlinin vəkili Nicat Gözəlov** hüquqi baxımdan prosesin gedişatından narahat olmadıqlarını qeyd etdi: “Bəzi iddialarımız var. Qulu Məhərrəmliyə qarşı olan iddialarla bağlı şikayət vermişik. Hələ ki ekspertizadan xəbər yoxdur. Xüsusi ittiham qaydasında olan şikayətlə bağlı ekspertizaya müraciət olunub. 100 min manatlıq mülki iddia qaldırılıb ki, onun icraatı dayandırılıb. Çünki bu, cinayət işinin nəticəsindən asılıdır. Hüquqi baxımdan gedişatdan narahatçılığımız yoxdur. Qulu müəllimin iddialarla bağlı şikayəti ayrı məsələdir. Ondan verilən şikayət də tam ayrıdır. Bununla bağlı məhkəmə yəqin ki, qarşıdakı günlərdə olacaq. Qulu müəllimin mühakimə olunduğu maddələrin sanksiyasında həbs var. Ekspertlərin rəyindən çox şey asılıdır. Qulu müəllim kifayət qədər tanınmış ziyalıdır. Hesab edirəm ki, məhkəmə o qədər dərinə getməz”.

**Sonda qeyd edək ki, A.Alışanov və Q.Məhərrəmli arasında narazılıq jurnalistin fevral ayında Azərbaycanda televiziyanın kütləvi yayımına başlamasının 60 illiyi ilə bağlı verdiyi müsahibədən sonra yaranıb. Bundan sonra Alışanov Məhərrəmlini məhkəməyə verib. O, jurnalistdən mülki qaydada dəymiş ziyanın ödənilməsini istəyib. Bununla bağlı A.Alışanov Nəsimi Rayon Məhkəməsinə müraciət edərək, Q.Məhərrəmlidən 100 min manat pul tələb edib. A.Alışanovun ərizəsində həmin pulu körpələr evinə verəcəyini göstərib. İşə aprelin 7-də hakim Etibar Hümbətovun sədrliyi ilə baxılacaq. A.Alışanov həmçinin Yasamal Rayon Məhkəməsinə müraciət edərək, Q.Məhərrəmlinin cinayət məsuliyyətinə cəlb olunması barədə xüsusi ittiham qaydasında şikayət verib.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Keçmiş baş prokuror sükutu pozdu - şok açıqlamalar...

## İxtiyar Şirin siyasətə qayıtdı və "Yeni Müsavat"a heyrətamiz faktlar açıqladı...

## "Sürət Hüseynov dedi ki, biz o torpaqları ermənilərə əl borcu vermişik"

**Milli Konqres Partiyasının sədri, keçmiş baş prokuror İxtiyar Şirin aktiv siyasətə qayıdıb. Son illərdə mətbuatda, siyasi arenada görünməyən partiya sədri hazırda bir neçə siyasi qurumun təsis etdiyi Antiböhran Koalisiyasında təmsil olunur.**



İ.Şirinlə ofisində siyasətdən uzaqlaşması və geri dönüşü barədə, eləcə də, baş prokuror işlədiyi 1992-93-cü illərdə Azərbaycanda baş verən, hazırda ölkədə cərəyan edən proseslər barədə söhbət etdik.

***- Son illərdə siyasətdən uzaqlaşmışdınız. Geri dönüşə səbəb nə oldu?***

- Siyasətdən getməmişdim. Bu illər ərzində də yoxa çıxmamışdım. Sadəcə, mətbuat bizdən uzaqlaşmışdı. Çox sevinirəm ki, uzun illərdən sonra qəzetiniz bizə üz tutub və müsahibə alır. Buna görə "Yeni Müsavat"a xüsusi təşəkkür edirəm.

***- Hər siyasi proseslərdə aktiv iştirakınız yox idi. Bəlkə müxalifətdəki ümumi durğunluq siyasətdən getməyinizə dair fikirlərin formalaşmasına səbəb olub?***

- Azərbaycan müxalifəti son illər ən ağır dövrünü yaşayır. Daxildə olan parçalanmalar, bir-birinə olan münasibətlər, aktual siyasi məsələlərdən kənarda qalmalar, ölkənin milli məsələlərini birlikdə müzakirə etmək üçün cəhdlərin olmaması müxalifəti kölgədə qoyub. Bunun yerini müxalifətdaxili münaqişələr tutub. Özünü gündəmdən çıxaran müxalifətdir. Amma son aylar təkcə Antiböhran Koalisiyasında deyil, digər qurumlarda da Azərbaycan mövzusu müzakirə olunmağa başlayıb. Müxalifətin əsas vəzifəsi də budur. Azərbaycan məsələsinin hələ ki geniş müzakirə olunduğu birlik bizik. Müsavat və AXCP kimi partiyalar tək fəaliyyətə üstünlük verirlər. Hazırda problemlərimiz o həddə çatıb ki, bunu təkcə müxalifət qurumları deyil, iqtidar partiyası və ətrafı da müxalifətlə birlikdə müzakirə etməlidir. Qarabağ kimi hərbi və diplomatik yolla həlli mümkün olan problemimiz var. Digər tərəfdən neftin qiymətinin aşağı düşməsi ilə iqtisadiyyatımızın nə yerdə olduğu üzə çıxdı. İqtidar və müxalifətin bir yerdə olmasının tam zamanıdır. Müxalifət şəxsi maraqlarını kənara qoyub, bu işlərlə birlikdə məşğul olmalıdır. Siyasəti mən belə düşünürəm. Mənə deyirsiniz ki, son illərdə yox idiniz. Bu illərdə Azərbaycanın problemləri ilə bağlı səslər eşidilmirdi. Buna təəssüflənirəm. Ancaq daxili qarşıdurmalar gündəmdə idi. Mətbuat da düşünürdü ki, əsas aktual məsələ bunlardır. Amma partiya olaraq, daim bu işlərlə məşğul olmuşuq.

***- Cəbhədə baş verən məlum prosesləri necə dəyərləndirirsiniz?***

- 1993-cü ildən bu yana Azərbaycan Qarabağ probleminin həlli istiqamətində böyük uğursuzluqlara düçar olmuşdu. Atəşkəslə bağlı imzalanan "Bişkək" protokolu ölkəmizi məğlub göstərmək üçün ciddi sənəd idi. Dağlıq Qarabağ da faktiki tərəf kimi tanınmışdı. 1994-cü ildə bağlanan atəşkəsdən sonra gedən danışıqların heç biri Azərbaycanın xeyrinə olmadı. ATƏT-in Minsk qrupunun meydana çıxması Türkiyənin bu prosesdə təsirini aradan qaldırdı. Rusiya, Fransa və ABŞ kimi dövlətlər həmsədrlərə çevrildilər. Bu dövlətlər isə ermənilərin dostudurlar. Biz Qarabağ məsələsini ermənilərin dostlarının əllərinə verdik. Bu dövlətlər 3 təklif irəli sürdülər. Biri problemin həlli ilə bağlı idi ki, Azərbaycan ona imza atdı. İkinci təklif paket həll planı idi. Azərbaycan yenə imza atdı, lakin Ermənistan qəbul etmədi. Yaxşı ki, belə addım atdılar. Üçüncü təklif ümumi dövlət həlli prinsipi idi. Yəni Azərbaycan və Dağlıq Qarabağ birlikdə dövlət yaradırdı, adı isə məlum deyildi. Azərbaycan bundan imtina etdi. Rəhmətlik Heydər Əliyev bu təklifləri parlamentin müzakirəsinə verdi. Nəticədə hər üç təklifdən imtina qərarı verildi. Həmin təkliflər bizim üçün çox aşağılayıcı idi. Azad ediləcək ərazilərə ermənilər istənilən vaxt girə bilərdilər. Uzun müddət sonra - 2007-ci ildən başlayaraq yeni təkliflər meydana çıxdı. Söhbət "Madrid prinsipləri"ndən gedir. Bu, ölkəmiz əleyhinə olan təkliflərdir. Bunu Azərbaycan qəbul edərsə, Dağlıq Qarabağın öz



### "Azərbaycan 1994-cü ilin atəşkəsindən imtina etməlidir"

müqəddəratını təyin etmək hüququnu tanıyır. Əvvəlki üç təklifdən daha ağırdır. Qarabağın bizdən alınmasını Minsk qrupu bu təkliflərin içərisinə qoyub. Azərbaycan bu yolla gedərsə, Qarabağ bizim olmayacaq. Ona görə hazırda gedən sülh danışıqlarının ölkəmizin xeyrinə olduğunu düşünmürəm. Azərbaycan danışıqlara davam etmək istəyirsə, ilk növbədə 1994-cü ilin atəşkəsindən imtina etməlidir. Ötən ay yeni atəşkəs imzalandı. Apreldəki döyüşlərin ən böyük əhəmiyyəti budur. Ölkəmiz "Madrid prinsipləri"ndən də imtina etməlidir. Əgər etməsə, baxmayaraq ki, aprel döyüşlərində qələbə qazanıb, amma danışıqlarda bu şans yoxdur. Nəticədə Dağlıq Qarabağ itiriləcək. Hakimiyyətin üzərinə ağır vəzifələr düşür. Azərbaycan məsələnin hərbi yolla həllinə daha çox üstünlük verməlidir. Ermənistan üzərində daha ciddi uğur qazanılmasa, danışıqların müsbət nəticəsinə inanmıram. Başqa yolumuz da qalmayıb. Əvvəl-axır Azərbaycan müharibə yolunu seçəcək.

***- Torpaqlarımızın işğalı vaxtı Azərbaycan rəhbərliyində təmsil olunmusunuz. İndiki situasiya həmin dövrdə olsaydı, torpaqlarımız itirilərdi?***

- Torpaqlarımız onda getməyəcəkdi. Hər hansı bir situasiyaya ehtiyac yox idi. Azərbaycan torpaqlarını müdafiə etmək üçün Kəlbəcərin işğalından sonra ciddi işlər görmüşdü. Mən Kəlbəcərin işğalından sonra prezidentlə danışıb Türkiyəyə getdim. Süleyman Dəmirəl və hərbiçilərlə görüşüb, xeyrimizə qərarlar qəbul etdirdik. Təcrübəli ordu yaratmaq üçün Türkiyədən 175 zabit gətirdik. Kifayət qədər lazımi silah aldıq. Məhz onların köməyi ilə BMT-də 822-ci qətnamə qəbul olundu. Türk ordusu Ermənistan sərhədlərində manevr edərək, ermənilərə işğal etdikləri Azərbaycan torpaqlarının geri qaytarılması üçün xəbərdarlıqlar etdi. Bundan sonra ermənilər Kəlbəcəri geri qaytarmaq üçün sənəd imzaladılar. Ancaq daxili düşmənlər xaricilərlə birləşib, bu prosesi davam etdirməyə mane oldular. Gəncədə 4 iyun qiyamı törədildi, ordumuz darmadağın edildi, ölkə qarışdı. Dövlət də sıradan çıxarıldı. Əks halda sentyabr ayında Kəlbəcər azad olunacaqdı. Həmin ilin oktyabrından etibarən hər üç aydan bir 16 minlik təcrübəli ordunu türklər bizə verəcəkdilər. Azərbaycanın heç bir rayonu işğal olunmayacaqdı. Ancaq satqın müxalifət, vəzifə hərisləri, rusların buradakı əlaltıları Azərbaycanı yıxdılar və bir neçə ay ərzində torpaqları təhvil verdilər. Sürət Hüseynov dedi ki, biz o torpaqları ermənilərə əl borcu vermişik. Bu nə deməkdir? Vətənə xəyanət deyil? O cümlədən, onunla birlikdə olan hər kəs vətənə xəyanət ediblər. 4 iyun qiyamı olmasaydı, Azərbaycanın heç bir rayonu işğal olunmayacaqdı, Kəlbəcər də qaytarılacaqdı. Həmin proseslər başa çatsaydı, Azərbaycan güclü dövlətə çevriləcək, torpaqlarımız da azad olunacaqdı. İndi hamı birləşib, torpaqlarımızı azad etməliyik. Müxalifətdəki partiyalar buna kökləniblər. Parlamentdə olanları demirəm, onlar müxtəlif hava çalırlar.

***- Elçibəyin həbsi ilə bağlı hazırlanan sanksiya sənədi ilə bağlı daim gündəmdəsiniz. Məhkəmə buna son qoysa da, tez-tez gündəmə bununla gəlirsiz...***

- Əli Ömərov məhkəmədə böhtançı kimi tanınaraq, cərimələndi. Elçibəyə heç bir sanksiya verməmişəm. Məni istəməyənlər və bilməyənlər bunu qabardırlar. Həmin sənədi Nemət Pənahlı, Ömərov və digərləri hazırlayıblar. Pənahlı özü dedi ki, biz girov götürüləndə həmin saxta sənədi hazırlayıblar.

***- Surət Hüseynov azadlığa çıxdıqdan sonra onunla rastlaşmısız?***

- Xeyr. Hesab edirəm ki, o cür şəxslə görüşmək lazımsızdır.

***- Nə zamansa üz-üzə gəlsəniz, ona deyəcək sözləriniz varmı?***

### "16 minlik təcrübəli ordunu türklər bizə verəcəkdilər"

- O, əlborcu verdiyi torpaqlar üçün Azərbaycan xalqının qarşısında nə vaxt cavab verəcək? Məni yalnız bu maraqlandırır. Xalqıma hesabat verib ki, verdiyi torpaqları necə qaytaracaq? Minlərlə vətəndaşımız o döyüşlərdə şəhid oldular. O, buna cavabdeh deyil?!

***- Torpaqların işğalında əsas onu günahkar görürsünüz?***

- Surət Hüseynov və onunla birlikdə olan hər kəs günahkardır. Kimlər ki, onu və Gəncə qiyamını müdafiə ediblər, hamısı məsuliyyət daşıyırlar.

***- Laçının işğalı günü yaxınlaşır. 1992-ci ilin bu günlərini necə xatırlayırsınız?***

- Bu məsələlərin mahiyyətinə varmaq lazımdır. O dövrdəki hadisələrin yalnız bir səbəbi var. Vəzirov, Mütəllibov və Yaqub Məmmədov hakimiyyətləri bu hadisələrin mahiyyətinə ya varmadılar, ya da baş verənləri gizlətdilər. Həmin işğala qarşı mübarizə aparmadılar. Ancaq öz hakimiyyətlərini qorumaqla məşğul oldular. Hadisələrin əksəriyyəti erməni işğalına göz yuman hakimiyyətin dövründə baş verdi. Mütəllibovu nəzərdə tuturam. Çünki iki dəfə o, hakimiyyətdən uzaqlaşdırıldı. Bu çevrilişə hər cür ad qoymaq olar. Hər şey ölkəni xilas etmək üçün edilirdi. Bu da xalq tərəfindən doğru qəbul edildi. Mütəllibov hazırda Bakıda oturub, Xocalı və digər hadisələrlə bağlı fikirlər bildirir. Ona məsləhət görərdim ki, ümumiyyətlə, bu məsələlərlə bağlı səsini çıxarmasa daha yaxşı olar. Çünki onun mövqeyi əvvəlki kimi yanlışdır. O dövrdə heç bir dövlət çevrilişi olmadı. Sadəcə, Azərbaycanı məğlubiyyətə aparan qüvvələrin uzaqlaşdırılması və daha ümidverici qüvvələrin hakimiyyətə gəlməsi prosesi baş verdi. Amma 4 iyun qiyamı birbaşa dövlət çevrilişi idi. Bunun başqa adı yoxdur.

***- Yaqub Məmmədovun gedişini də dövlət çevrilişi kimi qəbul etmək olar?***

- Orada məqsəd Məmmədovu devirmək deyildi. Sadəcə Mütəllibovu hakimiyyətə gətirmək üçün gedən proseslər idi. 15 may hadisələri komissiyasının sədri mən olmuşam. Araşdıranda məlum oldu ki, Ali Sovetin

### "İqtidar və müxalifətin bir yerdə olmasının tam zamanıdır"

Mütəllibovu hakimiyyətə qaytarmaq səlahiyyəti yox idi. Bu, ancaq seçkilərlə ola bilərdi. Qanunsuz qərar verilmişdi. Özü də kvorum olmadan. Ona görə dövlət çevrilişi idi. Sadəcə, Ayaz bəyin tərəfdarları müxtəlif don geyindirirlər.

***- Yaqub Məmmədov hakimiyyətdə qalsa necə olardı?***

- Qarşıdan prezident seçkiləri gəlirdi. 17 mayda Ali Sovetin iclasında iştirak etmişəm. Məmmədov özü Ali Sovetin sədri qalmaq istəmirdi, istefa verdi. Ondan sonra sədrin kim olması gündəmə gələndə cəbhə iddiaçını irəli sürdü, hamı da onu müdafiə etdi. Fikir ayrılığı olmadı. Təkcə Heydər Əliyevlə bağlı məsələ oldu. Ona zəng etdilər, amma cavab gəlmədi. Onun namizədliyini irəli sürənlər var idi. Səsvermə üçün razılıq lazım idi.

***- Həmin dövrdə əsas fiqurlardan biri də Rəhim Qazıyev idi...***

### "Rəhim Qazıyevin müdafiə naziri kimi cəbhə hakimiyyətində işinə davam etməsi yanlış qərar idi"

- Şuşanın verilməsi ilə bağlı cinayət işinə rəhbərlik etmişəm. Qazıyevin Şuşanın verilməsində olan rolu mənə aydındır. Onun müdafiə naziri kimi Cəbhə hakimiyyətində işinə davam etməsi yanlış qərar idi. Azərbaycan lazım olan vacib zamanını itirmişdi müdafiə gücünü artırmaq üçün. Onun uzaqlaşdırılmasından sonra nazirliyin işi ilə tanış olanda dəhşətə gəldik. Heç bir şey yox idi. Ordu tamam dağılmışdı. Kəlbəcərin işğalı göstərdi ki, o zamankı ordu rəhbərliyimizin ordu qurmaq təcrübələri yox idi. Rusiya ilə həmin dövrdə dost olsaq belə, torpaqlarımız yenə də işğal olunacaqdı. Gəncə hadisələrinin nəticəsidir ki, bu gün Azərbaycan hakimiyyəti bu qədər çətinliklərlə üz-üzədir.

***- Sizcə, bundan sonrakı proseslərdə müharibə qaçılmaz olacaq?***

- Qərb Ermənistanı sülhə məcbur etməyəcək. Onların məqsədi Dağlıq Qarabağı müstəqil dövlətə çevirmək, ərazilərimizin bir hissəsini koridor adı ilə Ermənistana verməkdir. Hərb yolu Azərbaycanın hüququdur. Beynəlxalq hüququn tanıdığı haqdır. BMT-nin nizamnaməsində bu var. Torpaqları azad etmək borcumuzdur.

***- Zakir Həsənova qədər olan müdafiə nazirlərimiz daim tənqid olunublar. Siz necə, indiki nazirin fəaliyyətindən razısınız?***

- Müdafiə sahəmiz milli məsələdir. Ona görə bu sistemdə çalışanlar millətin nümayəndələridir. Hansı hakimiyyət olursa-olsun. Onları müdafiə etməliyik. Zakir Həsənov əvvəlki nazirdən fərqli fəaliyyət göstərir. Bu göz qabağındadır. Müdafiə naziri xalqın adamı səviyyəsində olmalıdır. Həsənovun fəaliyyəti hamıda, şəxsən məndə də xoş təəssürat yaradıb. Mən də onu müdafiə edirəm. Bu həm də milli borcumdur. Xalqımız silaha sarılıb, müharibəyə getmək istəyirdi. Bu, orduya olan inamdır. Ermənistan qalib gələ biləcəyimiz düşməndir. Çətin olan onların havadarlarıdır. Aprel döyüşlərində ordumuz qələbə qazandı. Ermənilər müxtəlif don geyindirsələr də, faktiki qələbə var. Amma elə qələbə lazımdır ki, erməni havadarları olan ölkələr başqa tələb irəli sürə bilməsinlər. Bu qələbə erməniləri yola gətirmək üçün kifayət deyil.

❑ **Cavanşir ABBASLI**

### "Zakir Həsənovun fəaliyyəti məndə xoş təəssürat yaradıb"



# "Anarxist də özümüzük..."

Zamin HACI
zaminhaci@gmail.com

**Hər dəfə hansısa müxalif fikirli, rejimin əleyhinə hansısa formada çıxmış şəxs narkotiklə həbs ediləndə, insanlarımız bundan bezdiklərini söyləyirlər, iqtidarı daha yeni bir şərləmə üsulu fikirləşməməkdə qınayırlar. Bu həftə iki gənci də narkotikə bulayıb tutdular və eyni söhbətlər oldu. Sosial şəbəkədə keçmiş siyasi məhbus, NİDA üzvlərindən biri Rəşadət Axundovun yazdığı bu xatirə olduqca maraqlı idi: "Siyasi fəallara narkotik ittihamına camaatın reaksiyası ilə bağlı bir müşahidəmi yazım. Həbs olunub Kürdəxanıya aparıldıq. 6 nəfərlik kameraya saldılar məni. İçəri girən kimi dustaqlarla tanış olmağa başladıq, oturub çay içərkən nəyə görə həbs olunduğum barədə suallar verdilər. Ətraflı danışanda dedilər ki, həəə, biz bu hadisəni radiodan eşitmişik. Molotov kokteyli, iğtişaş-filan bizə də təəccüblü gəldi, maraqla qulaq asmağa başladıq radioya. Dedik bu nəsə yeni şeyə oxşayır, birinci dəfədir eşidirik, yeni cinayət növüdür, öyrənək bu haqda, doğrudan yəqin nəsə etmək planlayıblar. Birdən eşitdik ki, diktor deyir ki, iğtişaşçıların evindən narkotik də çıxıb, kefimiz pozuldu, söndürdük radionu ki, əşi, qurama işdi, torbadı bu da, həvəsimiz qursağımızda qaldı". Durumun tablosunu bundan yaxşı çəkmək mümkün deyil, çünki həyatın öz fırçasıyla çəkilmişdir.**

Bəs görəsən niyə həmişə narkotik şərləməsi olur? Axı siyasi məhbusların statistikasına baxsaq, burada narkotik maddəsi minimum 60-70 faiz halda tətbiq edilir. Kiməsə xuliqanlıq, başqasına silah atmaq - bunlar nadir hallardır. Narkotikin repressiya aləti kimi populyarlığının bir səbəbi onun yüngüllüyü, cibə-filana atılmasının asanlığıdırsa, başqa səbəbi iqtidarın yeni repressiya üsullarına ehtiyac duymamasındadır. Biz haçan yeniləşib yeni üsullarla mübarizə apardıq ki, rejim də özünü yeniləməyə ehtiyac duysun?

Üstəlik, insanları hansı üsulla şərləyib tutmağın nəticələrə heç bir təsiri onsuz da yoxdur, yəni, ittihamın əşyayi-dəlilləri mənasız şeylərdir, heç hakim və prokurorlar da sifarişli cəza müddətini kağızdan oxuyanda adamın cibindən 2 qram, yoxsa 2 ton narkotik "tapılmasına" önəm vermirlər. Məhkəmə qətnamələrinin qərar hissəsinə Cırtdanın nağılını yazıb istənilən adama 10 il cəza kəsmək mümkündür. Biz guya Avropa Məhkəməsinin təsiri altındayıq, bütün konvensiyaları imzalamışıq, ancaq indiyə qədər Avropa Məhkəməsinin "dərhal azad edin" qərarı verdiyi neçə-neçə dustaq hələ də azadlıq üzü görmür. Avropa isə buna qarşı kəskin tədbirlər görmək yerinə yenə də yapist məmurlara, onların arvad-uşağına isti qucaq açır. Ona görə də, el məsəlində deyilən kimi, xiyar əyri bitir.

İndi tutulan gənclərin anarxist olduğu deyilir. Belə baxanda, bunun mahiyyətcə yapistlərin sevimli "dövlətçilik" tavtalogiyasına zidd gəldiyi düşünülə bilər... Ancaq onlar nə qədər anarxistdirsə, bunlar da o qədər dövlətçidir. Prinsipcə, yapistləri daha çox anarxist saymaq olar, çünki respublikamızda anarxiya müxtəlif dövrlərdə məhz onların sayəsində öz buynuzunu göstərmişdir... Bizdə bəzən deyirlər ki, adam oğurluğu yoxdur. Bəs Çovdarovun illərlə MTN-ə basıb saxladığı, yüz minlərlə dollar alıb buraxdığı adamlar kimlər idi? Bəlkə Hacı Məmmədov anarxist deyildi?

**Keçən il Avropa Oyunları vaxtı yapistlər şəhərin bəzi yerlərinə... qraffiti çəkmişdilər. O sənət ki, dünyada azad rəssamlar, lap elə anarxist gənclər məşğuldur, onu dövlət özü eləmişdi. Bununla sanki demək istəyirdilər: "Bu ölkənin artisti də bizim əlimizdədir, xalq rəssamı da, küçə sənətçisi də. İstəsək replə yaltaqlıq təşkil edərik, istəsək rok musiqiçiyə "Şöhrət" ordeni verərik". Heykəl üzərində qraffiti çəkən gənclərə qarşı qəzəbin şiddəti həm də bununla bağlıdır - onlar hakimiyyətin sənət üzərində hüququna müdaxilə etmişdir.**

# Azərbaycan yenidən regional proseslərin episentrində

**Güney Qafqaz ətrafında, o sırada Dağlıq Qarabağla bağlı gedən proseslərdə son günlər maraqlı dinamika, xeyli vaxtdır görünməyən siyasi-diplomatik və hərbi aktivlik müşahidə olunmaqdadır. Baş verənlərin ötəri təhlili göstərir ki, münaqişələrlə zəngin, Rusiyanın "həyati maraqlar zonası" elan elədiyi Cənubi Qafqaz uğrunda onun ABŞ-la, Qərblə rəqabəti daha kəskin fazaya adlayıb. İntensivləşən proseslərin episentrində isə həmişəki kimi, Azərbaycan və Qarabağ münaqişəsi durur.**



## Putin ermənilərin 1 nömrəli düşmənini Bakıya göndərir - işğalçını qıcıqlandıran şok gəlişmə

### Ermənilərin faktiki "persona non-qrata" elan elədiyi Roqozinin prezidentlərin Vyana görüşündən dərhal sonra Azərbaycana gəlişinin pərdəarxası; sabah isə Qəbələdə Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin görüşü başlayır...

Buna hazırda özünü göstərən üç mühüm gəlişmədən görmək olar. Ötən sayımızda vurğuladığımız kimi, bölgə uğrunda qlobal güclərin kəskinləşən savaşı ilk növbədə hərbi güc müstəvisində özünü göstərir. Belə ki, dünəndən etibarən NATO-nun Gürcüstanda ilk və geniş miqyaslı hərbi təlimləri başlayıb. Bu təlimlərə cavab olaraq isə Rusiya forpost Ermənistanda eyni vaxtda təlimlərə start verib.

NATO təlimləri ayın axırınadək çəkəcək və Alyansın Gürcüstanda hərbi qüvvələr saxlaması ilə başa çatacaq. Həmin vaxt Rusiya prezidenti Vladimir Putinin Bakı və İrəvana səfər edəcəyi xəbəri yayılıb, rəsmən təsdiqlənməsə də...

***

Bu arada - mayın 16-da isə Vyanada, ATƏT-in Minsk Qrupuna həmsədr ölkələrin xarici siyasət idarələrinin başçılarının iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşəcəyi xəbəri yayılıb. 4 günlük aprel müharibəsindən sonra ilk olacaq belə yüksək səviyyəli təmasda hansısa sülh sənədinin imzalanacağı real olmasa da, belə bir görüş bölgəyə Qərbin artan diqqətini göstərir. Bu da Moskvanı bir elə məmnun edən məqam deyil. Çünki Rusiya Qarabağ məsələsində dominant rolunu itirmək fikrində deyil.

Ən maraqlısı odur ki, Vyana görüşündən cəmi bir gün sonra, mayın 17-də Rusiya baş nazirinin müavini, ölkənin hərbi-sənaye kompleksini kurasiya edən, Putinin yaxın adamlarından sayılan Dmitri Roqozin Bakıya səfər edəcək. Bu haqda "İnterfaks-Azərbaycan" məlumatlı mənbəyə istinadən xəbər yayıb.

"Rusiya baş nazirinin müavini Azərbaycan rəhbərliyi ilə danışıqlar aparacaq. Səfər çərçivəsində Rusiya prezidenti Vladimir PutininBakıya gözlənilən səfərinə dair hazırlıq işləri müzakirə olunacaq" - mənbə qeyd edib. Məlumatlara görə, gözlənilir ki, D.Roqozin Bakıda Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyəti də müzakirə edəcək.

***

Xatırladaq ki, D.Roqozin eyni zamanda Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədridir, V.Putinin səlahiyyətli şəxslərindən və sözçülərindən hesab olunur. Sonuncu dəfə o, mart ayında Bakıya qəfil səfər eləmiş, Rusiyanın Azərbaycana silah satışına dair müqavilələrin yerinə yetirilməsində yaranmış problemlə bağlı danışıqlar aparmışdı.

Ondan az sonra, Putinin də diqqətində olan problem aradan qaldırılmışdı. Mötəbər mənbələr bildirir ki, Azərbaycan Rusiyadan növbəti iri partiya silah və hərbi texnika sifariş verməyə hazırlaşır və çox güman ki, Roqozinin növbəti səfərində bu məsələ detallı müzakirə olunacaq.

Onu da yada salaq ki, aprelin əvvəllərində Qarabağda gedən hərbi əməliyyatlar zamanı Ermənistanın Rusiyanın Azərbaycana silah satmasına etirazlarına cavab olaraq Roqozin erməni tərəfinə sərt reaksiya vermiş, hətta ermələri aşağılamışdı. Roqozin demişdi ki, belə bəyanatlar demaqogiyadır və Bakıya silah satışı davam edəcək. "Əgər Rusiya Azərbaycana silah satmasa, onun yerini dərhal NATO ölkələri tutacaq" - o, vurğulamışdı.

Roqozinin xüsusən də 4 günlük müharibədən sonra bu kimi açıqlamalar verməsi Ermənistanda güclü qıcıq doğurmuş, hətta işğalçı ölkədə o, faktiki, "persona non qrata" elan edilmişdi. Halbuki, Roqozin həmin bəyanatları Putinin adından verirdi. Ayrı sözlə desək, ermənilər bununla əslində Rusiya prezidentinə təpki göstərmişdilər.

***

Putin indi ermənilərin 1 nömrəli düşmənini təzədən Bakıya yollayır - eyni məsələ ilə bağlı, silah ticarətini genişləndirmək üçün. Həm də elə bir dönəmdə ki, Moskva İrəvana ötən il silah almaq üçün ayırdığı 200 milyon dollarlıq kreditin verilməsini uzatmaqdadır. Şübhə yox ki, bütün bunlar Ermənistanı bir az da qəzəbləndirmiş olacaq.

Söz düşmüşkən, srağagün Rusiya XİN rəsmisi Mariya Zaxarova Moskvada keçirdiyi ənənəvi brifinqdə Bakıya silah satmaqla bağlı sual verən erməni jurnalisti məyus edib. Zaxarova deyib ki, "Rusiyanın Azərbaycana silah satmasında hər hansı nüanslar axtarmaq lazım deyil. Rusiya digər ölkələrlə hərbi-texniki əməkdaşlığını aydın beynəlxalq hüquqi əsaslarda aparır". Yəni erməni tərəfinin narazılığı və narahatlığı Moskvada ciddiyə alınmayacaq. Niyə?

Belə güman eləmək olar ki, Güney Qafqazın açar ölkəsi kimi, Azərbaycan Rusiya üçün hazırda təkcə etibarlı silah alıcısı kimi yox, həmçinin, başqa aspektlərdən qat-qat böyük önəm daşıyır. Söhbət yuxarıda vurğulandığı kimi, Qərbin, NATO-nun xeyrinə rəsmi Bakının strateji seçim edə biləcəyindən dolayı əndişədən gedir. Yəni bölgədə mübarizə əslində Azərbaycan uğrundadır. Moskva hər vəchlə çalışır ki, Azərbaycan onun siyasi-hərbi orbitindən uzaqlaşmasın və imkan düşərsə, Avrasiya layihələrinə qoşulsun...

***

Maraqlıdır ki, Roqozinin səfərindən iki gün öncə Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçlü görüşü planlaşdırılır. Belə ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəsmi dəvətilə mayın 14-də Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli və Türkiyənin milli müdafiə naziri İsmət Yılmaz Azərbaycanda rəsmi səfərə gələcəklər.

Mayın 15-dək çəkəcək müzakirələr hərbi və hərbi-təhlükəsizlik sahəsində əməkdaşlığın bundan sonrakı perspektivlərinə həsr olunacaq. Müdafiə Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində nazirlər arasında təkbətək və üçtərəfli formatda danışıqlar nəzərdə tutulub.

***

Göründüyü kimi, proseslərin episentrində həqiqətən də Azərbaycandır. Bunun ölkəmizə, o cümlədən Qarabağ məsələsində hansı dividentlər gətirəcəyini yəqin ki, üzümüzə gələn həftə(lər)də biləcəyik.

Sonda əlavə edək ki, bir sıra analitiklər Suriyadan əsas hərbi qüvvələrini çəkdikdən sonra Rusiyanın diqqətini Ukrayna və Güney Qafqaza yönəldəcəyini təxmin etmişdilər. Hesab edilir ki, yaxın və orta perspektivdə Rusiyanın Qərblə (ABŞ, NATO ilə) maraqlarının ən çox toqquşa biləcəyi bölgələr məhz bunlardır.

**İyulda NATO-nun növbəti sammiti keçiriləcək. Sammit ərəfəsində Qərb-Rusiya rəqabəti xüsusilə Güney Qafqaz, daha dəqiqi, Alyansa üzvlüyün 1-2 addımlığında olan Gürcüstandakı proseslər fonunda qabarıq görünür. Bölgə və ətrafında Qarabağ məsələsini də öz ağuşuna alan, hətta regionun təzədən şəkillənməsinə gətirə biləcək maraqlı proseslər başlayıb.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Cənubi Qafqazda Rusiya-NATO müharibəsi baş verə bilər

## Politoloqdan həyəcanlı xəbərdarlıq və təklif: "Türkiyənin Azərbaycanda hərbi baza yerləşdirməsinə ehtiyac var"

**Gürcüstan ordusu Amerika Birləşmiş Ştatları və Britaniya hərbi qüvvələri ilə birgə təlimlərə başlayıb. Hərbi manevrlərdə Birləşmiş Ştatların 650, Britaniyanın 150 və Gürcüstanın 500 əsgəri iştirak edir. Bu, Rusiya ilə 2008-ci ildə qısa müddətli müharibə aparan Qafqaz ölkəsində ən böyük hərbi təlimlərdir.**

Artıq Rusiyadan da məsələyə əks-reaksiya gəlib. Gürcüstanın NATO-ya üzv olmaq istəyinin əleyhinə olan Rusiya təlimləri "təxribatçı addım" adlandırıb. Qeyd edək ki, ABŞ Qara dəniz vasitəsilə "Noble Partner 2016" ("Ləyaqətli tərəfdaş-2016") təlimlərində iştirak etmək üçün Gürcüstana ilk dəfə olaraq M1A2 Abrams tipli döyüş tankları göndərib. Paytaxt Tbilisi yaxınlığındakı Vaziani hərbi bazası ətrafında keçirilən təlimlər mayın 26-a qədər davam edəcək. **Gürcüstanın Müdafiə Naziri Tina Xidaşeli** hərbi təlimlərin ölkə üçün böyük əhəmiyyəti olduğunu deyib: "Bu, bizim ölkənin ev sahibliyi etdiyi ən irimiqyaslı hərbi təlimlərdir,"- deyə nazir Xidaşeli Reuters agentliyinə bildirib. Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili isə bildirib ki, hərbi manevrlər "heç kəsə qarşı yönəlməyib." Gürcüstan prezidenti Georgi Marqvelaşvili açılış mərasimində deyib ki, birgə təlimlər ölkənin NATO-ya üzv olmaq istiqamətində doğru siyasət yürütdüyünün göstəricisidir: "Gürcüstan mütləq NATO-ya üzv olacaq. Çünki bu, daha sabit, daha dinc dünya üçün lazımdır".

Qeyd edək ki, bundan əvvəl ABŞ hərbi texnikası Moldova ərazisinə də daxil olub. Hərbi kontingentə tank qoşunları da daxildir. Xatırladaq ki, mayın 3-də ölkədə "Dragon Pioneer-2016" hərbi təlimlərinə start verilib. Moldova Müdafiə Nazirliyindən bildirilib ki, ölkə sərhədlərindən bundan əvvəl açıqlanan kontingent sayından daha çox tank, digər hərbi texnika və canlı qüvvə keçib.



Mayın əvvəllərində NATO-nun Rusiya sərhədlərində aktivləşməsinə şimal qonşumuzdan da cavab gəlib. Belə ki, Rusiyanın qırıcı və hərbi aviasiyasının Ermənistanda uçuş taktiki təlimləri başlayıb. Təlimlərdə 200-dən çox hərbçi, təxminən 20 təyyarə, Rusiya aviasiya birləşmələri və helikopterləri, o cümlədən "MİQ-29" qırıcıları, zərbə helikopterləri "Mi-24" və nəqliyyat helikopterləri "Mİ-8MT" iştirak edib. Bu təlimlərin təkcə NATO ölkəsi olan Türkiyəyə qarşı olmadığı da bəllidir. Bir sıra hallarda hesab olunur ki, NATO ilə Rusiyanın toqquşduğu bölgələrdən biri Cənubi Qafqaz ola bilər. NATO Moldovada da təlimlərə start verib, Baltik tərəfdən də içəriləri girir. Baş verənlərin Azərbaycana zərəri, faydası nə ola bilər?

**Politoloq Elxan Şahinoğlu** mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında vəziyyətin mürəkkəbliyindən bəhs edi: "NATO-nun Gürcüstanda, Rusiyanın isə Ermənistanda hərbi təlimlər keçirməsi ondan xəbər verir ki, Cənubi Qafqaz hərbiləşdirilir. Ona görə də belə vəziyyətdə Azərbaycanın balanslaşdırılmış siyasət aparması çətinləşir. Aydındır ki, rəsmi Bakı Rusiyanın etirazını nəzərə alaraq Azərbaycan ərazisində NATO təlimlərinə razılıq verməz. Ancaq Türkiyə də NATO ölkəsidir və Azərbaycan Türkiyə ilə hərbi təlimlərin sayını ilbəil artırır. Hadisələr ona doğru gedir ki, ABŞ yaxın gələcəkdə Gürcüstanda hərbi baza yaradacaq. Belə olan halda Cənubi Qafqazda ərazisində xarici ölkənin hərbi bazası olmayan yeganə ölkə Azərbaycan olacaq. Əlbəttə, Azərbaycanın qonşu ölkələrdən biri ilə münasibətləri gərgin olmasaydı, bizə xarici ölkənin hərbi bazası gərək deyildi". Ancaq politoloq xatırlatdı ki, Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir, üstəlik də torpaqlarımız işğal altındadır. Buna görə də bizim də seçim etmək vaxtımız yetişib: "Türkiyənin Azərbaycanda hərbi baza yerləşdirməsinə ehtiyac var. Bu baza qonşu dövlətlərdən hər hansı birini Azərbaycan ərazisinə hücumdan çəkindirməlidir. Necə ki, Rusiya hərbi bazalarının Ermənistanda varlığı bu ölkə üçün təhlükəsizlik sığortasıdırsa, eyni sığortaya biz də malik olmalıyıq".

**Amma ortaya sual çıxır, Rusiya Türkiyənin-NATO-nun bura gəlməsinə izn verərmi? E.Şahinoğlu:** "Əlbəttə, Türkiyənin Azərbaycanda hərbi baza yaratması Rusiyanı narazı salacaq, hətta rəsmi Bakıya etirazlarını da bildirəcəklər. Ancaq rəsmi Bakının əlində güclü arqument olacaq. Bakı Kremlə deyə bilər ki, necə ki, Sizin Ermənistanda hərbi bazanız var və bu Sizin hüquqnuzdur, bizim də hüququmuz var ki, qardaş dövlət olan Türkiyənin hərbi bazalarını Azərbaycanda açaq. Bir də ki, Rusiya Türkiyədən ABŞ-dan qorxduğu qədər qorxmur. Kreml sərhəd boyu NATO-nun genişlənməsinin əleyhinədir, ancaq Türkiyənin Azərbaycan hərbi bazasının formalaşmasına mane ola bilməyəcək. Kreml bilir ki, Türkiyənin Azərbaycanda hərbi bazası Rusiya üçün təhdid deyil. Bu baxımdan, Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin Qəbələdəki görüşünü təsadüfi saymıram. Qərb və Türkiyə Rusiyanın Cənubi Qafqazı öz arxa bağçası siyasətinə imkan vermək istəmir. Bu Azərbaycanın da maraqlarına uyğundur".

**Məhz belə bir kritik zamanda Ermənistanın Naxçıvan istiqamətində atəşkəsi pozması, hətta bir əsgərimizi yaralaması da hansısa niyyətlərdən xəbər verir. Məsələ burasındadır ki, NATO ölkəsi olan Türkiyə Naxçıvanın təhlükəsizliyinin qrantıdır. Belə çıxır ki, "arxalı köpək" missiyasını yerinə yetirən Ermənistan Rusiyanın hərbi dəstəyinə arxalanıb proseslərə Türkiyənin aktiv müdaxiləsinə cəhd göstərir. Bu, onun nəyinə lazımdır? E.Şahinoğlunun fikrincə, Ermənistanın Dağlıq Qarabağ istiqamətində atəşkəsi pozmaqda məqsədi Azərbaycan ordusunun mümkün hücumlarından özünü qorumaqdır:** "Bunu anladıq. Halbuki erməni separatçılarının bu strategiyası artıq işə yaramır. Naxçıvandan ki, Ermənistana heç bir təhlükə yoxdur. Demək, Naxçıvanı atəşə tutmağın hərbi məqsədi yoxdur, İrəvanın hədəfi bölgədə geosiyasi qarışıqlıq yaratmaqdır. İrəvan Naxçıvanın təhlükəsizliyinin təminatçısı Türkiyənin əsəblərini - Ankaranın reaksiyasını yoxlayır. İrəvan düşünür ki, əgər Qarabağ istiqamətində Azərbaycan ordusu ilə bacarmayacaqsa, heç olmasa bölgədə Türkiyə-Rusiya qarşıdurması yaransın. Düşünürlər ki, bu halda Rusiya açıq-aşkar Ermənistanı müdafiə edəcək və Kremlin Azərbaycanla tərəfdaşlıq münasibətləri pozulacaq".

❑ E.PAŞASOY

# Vyana görüşü- "diplomatik tələ", yoxsa...

## Elxan Mehdiyev: "...Beləliklə, torpaqlar ermənidə və bizim işimiz də bundan sonra "kim güllə atdı" onu müəyyənləşdirmək olur"

**Azərbaycan və Ermənistan prezidentləri uzun fasilədən sonra gələn həftə Vyanada görüşəcəklər. Görüşün özəlliyi təkcə aprel döyüşlərindən sonraya təsadüf etməsi ilə əlaqədar deyil, həm də bu görüşdə ATƏT sədri, iki dövlətin XİN başçıları ilə yanaşı, ABŞ-ın dövlət katibi Con Kerri və Rusiyanın XİN başçısı Sergey Lavrovun da iştirak etməsidir. Eyni zamanda, ATƏT-in Minsk Qrupunun həmsədrləri - amerikalı Ceyms Uorlik, rusiyalı İqor Popov və fransalı Pyer Andryun da Vyana görüşünə qatılacaqlar.**

Rusiyanın da bu görüşə "xeyir-dua" verməsi maraqlı situasiya yaradıb. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın sözlərinə görə, görüşdə Rusiya, Fransa və ABŞ-ın xarici siyasət idarələrinin rəhbərləri də iştirak edə bilər. "Əsas məqsəd məsləhətləşmələr, atəşkəs rejiminin gücləndirilməsi, hərbi risklərin azaldılması, etimadın möhkəmləndirilməsi ilə bağlı razılığın əldə olunmasıdır" deyə, Zaxarova bildirib.

Bu arada Rusiyanın baş nazirin müavini Dmitri Roqozin yenidən Azərbaycana gələcəyi xəbəri yayılıb. Onun səfəri mayın 17-də baş tutacaq. Bu barədə xəbəri ANS məlumatı "İnterfaks"a istinadən yayıb. "Rusiyanın baş nazirinin müavini Bakıda Azərbaycan rəhbərliyi ilə danışıqlar aparacaq. Səfər çərçivəsində həmçinin may ayında Rusiya prezidenti Vladimir Putinin Azərbaycana gözlənilən gəlişi müzakirə olunacaq" deyə, mənbə bildirib. Tərəflər həmçinin Qarabağ münaqişə ətrafında yaranan vəziyyəti də müzakirə edəcəklər. Eyni zamanda Rusiya dövlət başçısının səfərinin mayın sonunda reallaşağı da iddia edilir.



Azərbaycan ordusunun cəbhədə üstünlük qazandığı, işğalçı ölkənin ağır duruma düşdüyü bir zamanda danışıqlar qərarının verilməsi birmənalı qəbul olunmur. Bəzi ekspertlər hesab edir ki, Vyana görüşü Azərbaycanı diplomatik tələyə salmaq məqsədi güdür.

**Siyasi şərhçi Elxan Mehdiyev** "Yeni Müsavat"a açıqlamasında mühüm bir məqama diqqət çəkdi: "Həmsədrlərin bəyanatının mətni və Rusiya XİN-in bəyanatı göstərir ki, Vyana görüşü aprel qarşıdurmasından sonra erməni işğalının aradan qaldırılması üçün təcili tədbirlərin görülməsi istiqamətində yox, atəşkəs rejiminin möhkəmləndirilməsi, yeni işğalın davam etməsi istiqamətindədir. Görüş üçün bəyan edilən təkliflər fakti ki olaraq Sərkisyanın təklifləridir və Minsk Qrupu həmsədrləri adından verilir. Burada daha dərinə gedilərək, Azərbaycanın əvvəllər qəbul etmədiyi təkliflər yeni, atəşkəs xəttində mexanizmlərin hazırlanması və insidentlərin araşdırılması və "tərəflər arasında inam tədbirləri" deyilən texniki, amma vəziyyəti daha da qarışdıran bir formulanın yenidən gündəliyə salınmasıdır. Bu, nə deməkdir? Bu, o deməkdir ki, əgər həmin təkliflər qəbul edilərsə, o zaman ATƏT- in Kasprşik ofisi genişləndirilir, səhra müşahidəçilərinin sayı artırılır və hər dərədə bir neçə ayırdedici "datçik"lər qurulur və kim atəşkəsi pozubsa araşdırılır və beləliklə, torpaqlar ermənidə və bizim işimiz də bundan sonra "kim güllə atdı" onu müəyyənləşdirmək olur. Sadə dildə desək, baş qarışacaq kiçik texniki məsələlərə və ATƏT-in də "prosesi" davam edəcək. Kim buna gedər ki? Hər halda İlham Əliyev bütün bunları əvvəllər rədd etmişdi. Əgər indi gündəmdə bu məsələlərdisə, o zaman Vyanaya getməyin heç bir mənası yoxdur. Erməni tərəfi sevinir ki, onun tələbləri ATƏT tərəfindən gündəmə qoyulub və onlara da vəziyyəti uzatmaq üçün elə bu lazımdır. Ermənilər dinc yolla torpaqlardan çıxmaq istəmir və indiki dönəmdə məqsəd bu mexanizmləri Azərbaycana qəbul etdirib bundan sonra da həmin mexanizmlərin ətrafında oynamaqdır. Elə onların diplomatiyasının son beş ildə səyləri də ancaq buna yönəlib. Bunu onlar heç gizlətmirlər də. Həmsədrlər bu mexanizmləri işə salmaqla faktiki olaraq Kiprdəki modeli tətbiq edirlər. İşğalı 22 il uzadıb sonra da işğalçı ilə inam tədbirləri təşkil etmək işğala bəraətdən başqa heç bir məna daşımır".

**E.Mehdiyev hesab edir ki, Azərbaycan buna getməmələdir:** "Azərbaycanın indiki danışıqlarda bir tələbi olmalıdır: o da erməni qüvvələrinin torpaqlardan çıxması və bunun üçün mexanizmlərin hazırlanması! Bütün cəmiyyətin gözlədiyi budur. Heç bir ölkə işğal altında olan öz torpağında işğalı uzatmağa xidmət edən mexanizmlər qurmaz! ATƏT-in təklifi Azərbaycanı diplomatik tələyə salmaq və yeni hüquqi mexanizmlərə bağlamaqdır. Azərbaycan buna gedərsə, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttindəki vəziyyəti və eləcə də bu məsələyə beynəlxalq baxışı Azərbaycanin xeyrinə köklü şəkildə dəyişmiş Azərbaycan ordusunun bütün qəhrəmanlıqlarını yerə vuracaq, vəziyyəti yenidən qeyri-müəyyənliyə sürükləyəcək. Biz bu təklif edilən tədbirlərə o zaman razı ola bilərik ki, o, işğalın bitməsi ilə bağlı razılaşdırılmış siyasi yol xəritəsi ilə bərabər qəbul olunsun. Başqa cür olarsa, bu, ancaq birtərəfli və işğalçıya bəraət verən yeni situasiya yaradacaq".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016



# "Eurovison - 2107" Bakıda olsun

Samir SARI

**Bilirəm, əslində hamımız istəyirik ki, bu axşamkı "Eurovision" yarışmasında bizim qız qalib gəlsin. Saytlarda, sosial şəbəkələrdə əksini yazanlara baxmayın. Onlar o qədər də səmimi deyillər, zarafat edirlər.**

Sosial şəbəkədə baməzə şeylər yazmaq trenddir, bu saat çox adam elə şeylər yazır, lağlağı edir, çünki kədərli statuslar çox oxunmur, heç, türkün sözü, bəyəni də toplamır. Amma bir də görürsən, Nailin, Turxanın məzəli statusunu 1200 adam bəyənib.

Ona görə də çox adam daima hər şeyə məzə prizmasından yanaşırlar, insanlara, izləyicilərinə pozitiv enerji vermək istəyirlər, istəmirlər ki, Kənan Hacı və Cəlil Cavanşir kimi onları kədərə boğsunlar.

"Eurovision"da bizi təmsil edən Səmranın qalib gəlməsini istəmədiyini, hətta bundan ötrü ağır seyidlərə, eləcə də stasionar ocaqlara nəzir vəd etdiyini yazan həmvətənlər bunu, əmin olun ki, məzə üçün deyirlər *(hərçənd sıralarında antimilli ünsürlər də ola bilər).* Gerçəkdə hamısı istəyir ki, Səmra qalib gəlsin.

Niyə? Çünki hər dəfə hansısa ölkədən babat xal (8, 10, 12) alanda və adamın əziz, doğma bayrağı interaktiv cədvəldə yuxarı sıçrayanda, dost-düşmən ölkələri arxada qoyub ön sıralara yerləşəndə adama ləzzət edir. Elə adam var ki, "Eurovision"da göstərilən şouları izləmir, məhz səsvermə başlayanda qoşulub baxır və başlayır azarkeşlik eləməyə.

Bizim bala yaquar şoulara əvvəldən axıra qədər baxır, favoritləri sayır, proqnozlar verir, amma səsvermə zamanı interaktiv cədvəldə yerdəyişmələr başlayanda uşağın başı çönür. Şou qalır bir tərəfdə, onun özünü izləmək daha maraqlı hala gəlir. Elə ki bayrağımız yuxarı qalxlr, sanasan, "Qarabağ" "Barsa"ya qol vurub, varisdən "Yesss!!!" sədası qopur, ya da hansısa ölkə adımızı heç olmasa 1 xalla anmayanda gül ağzı açılır, dərhal həmin ölkənin adını düşmənlər siyahısına salır. Ha deyirəm ki, bu şou yarışmasıdır, konsertdir, vecinə alma, xeyri yoxdur.

Doğrusu, sırf oğlumun *(eləcə də onun kimi düşünən və milli qələbə sevinci yaşamaq istəyənlərin)* o cür sevinməsini, qürurlanmasını görmək üçün istəyirəm Səmra qalib gəlsin.

Tıxac olacaqmış! Cəhənnəmə olsun. 15 ildir ki, tıxaclarda qocalırıq, bir həftə artıq qalanda nə olacaq ki. Onsuz da 18-68 yaş arasındakı milli avtoxuliqanlarımız hər gün yollarda maşın oynadaraq qəza törədir, tıxac yaradırlar. "Eurovision" tıxacının üstün cəhəti odur ki, ölüm olmur, tıxac da təbii tıxac olur.

Başqa vaxt Avropaya inteqrasiyadan danışmırdıqmı? Ta inteqrasiya necə olsun? Gəliş-gediş olmasa inteqrasiya olmaz. "Eurovision"un qalibi olsaq, yenə avropalılar axışıb tökülüşəcək paytaxtımıza, pul-para xərcləyəcəklər, özləri ilə suvenir, xalça-palaz, müsbət təəssürat-filan götürüb aparacaqlar. Biz də nə vaxtsa onların ölkəsində müsafir olanda, rastlaşarkən Bakıdan gəldiyimizi bilib deyəcəklər ki, orda olmuşuq. 6 il əvvəl Amerikada olanda bir amerikalıyla ünsiyyətdə olduq. Adı Tom idi, vaxtilə Şəkidə işləmişdi, hələ də "piti, halva, ımmm, ləzzət" deyirdi. Yeri gəlsə, biz Avropanı elə lülə-kababla fəth etməliyik.

"Eurovision"un cinsi azlıqların şou-yarışması adlandırıb pisləyənlər də istəmirlər qalib gələk. Çünki azlıqlar gəlib ölkəmizdə gey-parad keçirə bilərlər. Qəti qorxusu yoxdur, əmi canı. Birincisi, o yarışmada iştirak edənlərin əksəriyyəti cinsi azlığa mənsub deyil, çoxu heteroseksual adamlardır. İkincisi, avropalı geylər elə bir sortdurlar ki, öz paradlarını keçirməyə mütləq yer tapırlar. Üçüncüsü, biz Avropaya inteqrasiya layihəmizi beş-altı geyin, göyün kaprizinə qurban verə bilmərik. Lazım gəlsə, biz onları hava limanından üzü bəri keçməyə qoymarıq, ya da onları 2012-ci ildə Norveçdən gəlib bayrağımıza şıllaq atan iranlını danaboyun eləyib, dalına təpik tutuzdurub ölkədən deportasiya etdiyimiz kimi edərik.

Xülə, yaxşı olar ki, bu gecə qalib gələk. O boyda Kristal Hall arenası da hazırdır, qoy gələn il qonaqlı-qaralı olsun. Qonaq yola salmaq, hesab vermək təcrübəmiz də var, şükür ki.

**Qələbə başqa şeydir. İşdir, erməni qızı qalib gəlsə, özümüzü necə hiss edərik?**

# "Ermənilərin Azərbaycana böyük köçü başlaya bilər"

**Ötən il sentyabrın 17-də öz müraciətləri əsasında ölkəmizə pənah gətirən Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Martirosyan və onun ailəsi artıq 3-cü ölkəyə təhvil verilib. Ölkənin adı açıqlanmasa da, erməni ailəsinin Bakını tərk etdikləri dəqiqləşib.**

**Erməni ailəsinin ölkəmizə gəlişindən sonra bu prosesin davamlı olacağı barədə vaxtaşırı ictimaiyyət arasında fikirlər dolaşırdı. Hətta bunun ilkin rüşeymləri də görünməyə başlamışdı. İstər Ermənistanda, istərsə də, Dağlıq Qarabağda yaşayan ermənilər arasından Azərbaycana meyllər artmışdı. Buna səbəb də, düşmən ölkədə əhalinin yaşayış durumunun olduqca aşağı səviyyədə olması, bu səbəblə hökm sürən aclıq və səfalət idi. Amma proses qəflətən səngidi. Hərçənd ki, düşmən ölkədə əhalinin vəziyyəti getdikcə ağırlaşır. Ekspertlər bildirirlər ki, Azərbaycan düşmənin ağır durumundan istifadə edib, ermənilərin Bakıya gəlişlərini təşkil etməlidir.**

Martirosyan və ailəsinin Azərbaycana pənah gətirdiyi vaxtlar bu proseslərdə aktiv iştirak edən h**üquq müdafiəçisi Novella Cəfəroğlu** erməni ailəsinin 3-cü ölkəyə təhvil verilməsinin səbəblərini açıqladı: "Ən uyğun variantımız bu idi. İtaliya və digər ölkələrdə bu məsələlər qabardılırdı. Martirosyan 3-cü ölkədə Sərkisyan rejiminə qarşı, eləcə də, Qarabağla bağlı təşkilat yaradıb. Düşünürəm ki, bu proseslərin davamlı olmasının qarşısını apreldəki döyüşlər aldı. Yaxın zamanlarda ermənilərdən biz tərəfə keçmələrin olacağına inanmıram. Buna imkan da verməzlər".



**Novella Cəfəroğlu:** "Proseslərin davamlı olmasının qarşısını aprel döyüşləri aldı"



**Qabil Hüseynli:** "Ermənilər Azərbaycana asanlıqla cəlb oluna bilərlər"

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Ermənistandan Azərbaycana vətəndaşlar keçirmək üçün ən münbit şərait formalaşıb: "Bu dəqiqə Ermənistan cəmiyyətində bu mövzuda danışanlar çoxdur. Yaxınlarda Ukraynada yaşayan Ağacanyan adlı erməni Dağlıq Qarabağ ermənilərinin Ermənistana aid olmadıqlarını bildirdi. Arsax erməniləri faktiki olaraq, dini dəyişdirilmiş albanlardan ibarətdirlər. Bu baxışlar Dağlıq Qarabağda da geniş yayılıb. Aprel müharibəsindən sonra ermənilər Dağlıq Qarabağdan həm köç edirlər, həm də erməni məmurlar onlara zülm edərsə, Azərbaycana keçəcəkləri barədə təhdid səsləndirirlər. Azərbaycan tərəfi bu proseslərdə öz işini düzgün qurmağı bacarmalıdır. Əsas da, xüsusi xidmət orqanları. Dağlıq Qarabağda işləmək çətindirsə, Gürcüstanın "Sadaxlı bazarı" deyilən ərazidə işləmək o qədər də çətin deyil. Oradan erməniləri Azərbaycana gətirmək imkanları kifayət qədər var. Vaxtı ilə Azərbaycandan Ermənistana gedənlərin ölkəmiz üçün burunlarının ucu göynəyir. Müəyyən yollarla onlar Azərbaycana asanlıqla cəlb oluna bilərlər. Təminatlarını təşkil etmək şərti ilə proses aparıla bilər. Bunun üçün hətta "erməni kəndi" də salmaq olar. Müharibə vaxtı belə xərclərə getmək olar. Əsası yaşayış şərtlərinin təmin edilməsidir. Ermənilərin Azərbaycana böyük köçü başlaya bilər. Amma bu iş təşkilatı fəaliyyətlə başa gələ bilər. Burada peşəkar insanlar çalışmalıdır. Xüsusi bir planın hazırlanmasına da ehtiyac var. Bunun üçün qeyri-rəsmi orqan da təşkil etmək olar. Bu orqanda erməni dilini bilənlərin olması işə daha çox xeyir verə bilər. Ermənilərin ağzını bu şəraitdə kifayət qədər döndərmək olar. Müharibə xərcləri kimi, xərclərin bir hissəsini bu istiqamətə yönəltmək olar. Bunu ikinci bir cəbhə kimi də qəbul etmək olar. Xüsusi şəxslərə təlimat verilməli və bu istiqamətdə çalışan həmin şəxslər təcrübəli olmalıdırlar. Bayaq dediyim qeyri-rəsmi qurum da bu işlə məşğul olmalıdır. Amma işi iş bilənə tapşırmaq şərti ilə".

❑ Cavanşir ABBASLI

# "Çirkli bombanı biz də düzəldə bilərik"

**Nüvə eksperti:** "Ermənistanın atom silahı ilə Azərbaycanı təhdidi boş və mənasızdır..."; "Stop Metsamor!" petisiyası üzrə imza toplanmasına start verilib

**Azərbaycanın Hərbi Prokurorluğunda ermənilərin mülki əhaliyə qarşı kimyəvi silahlardan istifadə etməsi faktına görə cinayət işi başlanıb. Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, Beynəlxalq humanitar hüquq normalarında təsbit edilmiş qaydalara məhəl qoymayan erməni silahlı bölmələri bu tip mərmilərdən təkcə Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutduqları zaman deyil, həmçinin yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı da istifadə edir.**



Onu da qeyd edək ki, işğalçı Ermənistan son zamanlar Azərbaycanı nüvə silahı ilə də təhdid edir. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bildirib ki, yalnız nüvə silahı ilə "Ermənistanın və Dağlıq Qarabağın təhlükəsizliyini təminat altına almaq" mümkündür.

Məsələ barədə "Yeni Müsavat"a danışan **Radiasiya Problemləri İnstitutunun sabiq direktoru Adil Qəribov** bildirdi ki, Ermənistanda yerləşən Metsamor Atom Elektrik Stansiyası *(AES)* təkcə Azərbaycan deyil, bütün Qafqaz ölkələri üçün problemdir: "Bu, eyni zamanda bizdən çox Türkiyə üçün təhlükəlidir. Çünki aralarındakı məsafə cəmi 16 kilometrdir. Oradakı AES-in təhlükəli olmasının səbəbi onun 1985-ci ildə istifadəyə verilməsidir. AES-in ömrü cəmi 25 ildir. Onun artıq istifadə müddəti başa çatıb. Ancaq hesab edirəm ki, bunu heç zaman Ermənistan dayandırmayacaq. Onlar bundan strateji obyekt kimi istifadə edirlər. Ermənistan nüvə ölkəsi statusunu yalnız bu AES vasitəsi ilə qoruyub saxlayır. Uzun illərdir Ermənistanda AES-in bağlanması məsələsi Azərbaycan tərəfindən qaldırılır. Lakin Ermənistan bildirir ki, enerji təhlükəsizliyimiz bundan asılıdır və dayandıra bilmərik. Ermənistanın əsas məqsədi qeyd etdiyim kimi, nüvə materialına malik olmasıdır. Təhlükəsi olsa da onlar bunu dayandırmayacaqlar".

**A.Qəribov Azərbaycanda da AES tikintisini mümkün sayır:** "Ancaq bunun üçün gərək neftin də qiyməti müəyyən həddə çatsın. Hələlik Azərbaycanda AES tikintisinə ehtiyac yoxdur. Çünki neftimiz, qazımız, təbii enerji daşıyıcılarımız kifayət qədərdir. Sovet dövründə Nəvaidə AES-in tikilməsi ilə bağlı layihə var idi. Çox gözəl layihə idi. Ancaq heyf ki, həyata keçirilmədi. Buna baxmayaraq, ölkədə AES-in tikilməsi üçün şərait var. Gələcəkdə buna baxa bilərlər. Bəziləri deyirlər ki, AES-in tikilməsi ölkə üçün zərərlidir. Xeyr, heç bir zərəri yoxdur. Yaponiyada bütün enerjinin 40 faizə qədərini AES vasitəsi ilə alınır. Sadəcə olaraq, bütün lazımı qaydalara riayət etmək lazımdır. Bütün dünya AES-dən istifadə edir. Burada siyasi oyunlar da var. Neft tərəfdarları olanlar bir cür, AES tərəfdarları onlanlar isə başqa cür məlumatlar yayır. Ermənistandakı AES-in isə təhlükəli olmasının səbəbi, yalnız onun köhnəliyidir".

**A.Qəribov Ermənistanın Azərbaycanı təhdidi məsələsinə də toxunaraq bildirib ki, onlarda heç bir nüvə silahı yoxdur:** "Bütün təhdidlər də mənasız və yalandır. Nüvə silahı üçün zənginləşmiş uran lazımdır. Onlarda isə nə zənginləşdirici sistem, nə də uran var. Yalnız reaktor üçün istifadə edilən uran varlarıdır, ona da ermənilərin toxunmağa ixtiyarları yoxdur. Çünki bu, Rusiyanın nəzarəti altındadır. Təhdidlər də boş hədələrdən başqa bir şey deyil. Ermənilər yalnız çirkli bombadan istifadə edə bilərlər. Çirkli bombanı biz də düzəldə bilərik. Bunun partlaması nəticəsində ərazi radioaktiv maddələrlə çirklənir. Çirkli bomba hazırlanan zaman partlayıcı maddənin içərisinə radioaktiv izotoplar da qoyurlar. Partlama adi qaydada olur, lakin ətraf ərazi çirklənir. Bu bombalardan yalnız genişmiqyaslı müharibələr zamanı istifadə edilir".

Onu da qeyd edək ki, bu günlərdə genişmiqyaslı "Stop Metsamor" kampaniyasına başlanılıb. Bir qrup bloqqer change.org saytında Metsamor AES-in bağlanmasını tələb edən "Stop Metsamor!" petisiyası üzrə imza toplanmasına start verib. Kampaniyanın başlanmasına səbəb AES-in Cənubi Qafqaz, Orta Asiya, Xəzər və Qara dəniz ölkələri üçün ciddi təhlükə mənbəyinə çevrilməsidir.

**Bu istiqamətdəki daha bir fakt isə ondan ibarətdir ki, Ermənistanda AES-in mövcudluğu nüvə materialları qaçaqmalçılığı ilə məşğul olan transmilli cinayətkar qrupların regiona diqqətini artırır, onların işğal altında Azərbaycan ərazilərində sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradır. Ermənilərin nüvə qaçaqmalçılığı ilə məşğul olması, radioaktiv materialları ölkədən çıxararaq satmaq cəhdlərinə dair çoxsaylı faktlar mövcuddur. Belə materialların İŞİD və "Əl-Qaidə" kimi terror qruplaşmalarının əlinə düşəcəyi təqdirdə nəyin baş verəcəyini təsəvvür etmək heç də çətin deyil.**

❑ Əli RAİS

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

**Mayın 16-da Avstriyanın paytaxtı Vyanada ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ola bilər. Görüşdə əsas müzakirə mövzusu Qarabağa nizamlanması olacaq. Bu barədə "İnterfax"a Rusiyanın xarici işlər nazirinin müavini Qriqori Karasin bildirib. O da məlum olub ki, prezidentlərin görüşünə Rusiya xarici işlər naziri Sergey Lavrov, ABŞ dövlət katibi Con Kerri və Fransanın xarici siyasət idarəsinin başçısı Jan Mark Ero da qatılacaq. Lakin hələ ki, rəsmi Bakı və İrəvan bu xəbəri təsdiqləməyib.**



# Qarabağa dair "3+2 formatı" - Vyana gözləntiləri nə vəd edir?

## Vasitəçilərin prezidentləri görüşdürmək istəyi sülh prosesini dalandan, müharibə ehtimalını isə gündəmdən çıxara biləcəkmi? Ekspertlər nikbin deyil, çünki…

**"Rusiya, ABŞ və Fransa xarici işlər nazirləri mayın 16-da Vyanada Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan prezidenti Serj Sərkisyan arasında baş tutacaq görüşdə iştirak etmək niyyətindədir". Bunu isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova deyib. "Növbəti həftə Vyanada Azərbaycan və Ermənistan liderlərinin görüşü planlaşdırılır. Həmçinin görüşdə, Minsk Qrupunun xarici işlər nazirlərinin iştirakı da nəzərdə tutulur" - Zaxarova söyləyib.**

***

Xatırladaq ki, Azərbaycan və Ermənistan dövlət başçılarının bundan əvvəlki, sonuncu görüşü İsveçrənin Bern şəhərində - ötən il dekabrın 19-da baş tutub. O zaman 1 saatdan çox çəkən təmas öncəkilər kimi heç bir nəticə olmadan bitmişdi. Az sonra Azərbaycan prezidenti İlham Əliyev həmin görüşü imitasiya xətrinə görüş adlandıraraq, bu kimi təmaslara lüzum olmadığına diqqət yönəltmişdi.

Budəfəki Vyana görüşü isə ən azı, iki mühüm detalı ilə fərqlənir və diqqət çəkir. Əvvəla, bu, apreldəki 4 günlük müharibədən sonra ilk yüksək səviyyəli görüş olacaq və necə deyərlər, sülh danışıqlarının aqibətinə, geniş miqyaslı müharibə ehtimalına aydınlıq gətirəcək.

İkinci mühüm özəllik isə ilk dəfə olaraq prezidentlərin görüşünə üç həmsədr dövlətin xarici siyasət idarələrinin başçılarının da qatılmasıdır. İndi bəlli olur ki, Lavrov və Kerri arasında son həftələrdə baş tutmuş bir neçə telefon söhbətində Qarabağ mövzusu hansı tematikanı nəzərdə tutubmuş.

İstənilən halda, XİN rəhbərlərinin iştirakı sözsüz ki, qarşıdakı görüşün daha sanballı xarakterindən xəbər verir. "3+2" formatı adlandırıla biləcək belə bir formatın hansısa mühüm nəticə ilə bitəcəyini söyləmək isə tezdir. Ən az ona görə ki, aprel döyüşlərindən sonra Ermənistan daha radikal mövqe sərgiləməkdə, üstəlik, danışıqların bərpası üçün absurd ön şərtlər irəli sürməkdədir. Həmsədrlərin son bəyanatında isə yenə də yalnız "qarşılıqlı etimadın gücləndirilməsindən" bəhs edilir.

Bununla belə, Azərbaycan üçün bu, ilk fürsətdir ki, nəhayət, işğal olunmuş ərazilər məsələsini bütün ciddiliyi ilə qaldırsın, qəti şəkildə qoysun. Əks halda, düşməni güclə hədələsin. 5 apreldən sonra indi təşəbbüs və şans Bakıdadır.

Odur ki, nə şansı, nə də fürsəti qaçırmaq olmaz. İmkan vermək olmaz ki, həmsədr ölkələr, onların xarici siyasət idarələrinin başçıları yenə təcavüzkarın maraqlarının yedəyində getsin, özünə gəlməsi üçün ona qiymətli vaxt qazandırsın.

***

Bəs növbəti Vyana görüşü nə vəd edir? Ekspertlər bir elə nikbin deyil. Məsələn, sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, hazırda İlham Əliyev və Serj Sərkisyanın görüşü üçün heç bir hazırlıq görülməyib: "Çünki görüş və orada müzakirə olunacaq məsələlər əvvəlcədən xarici işlər nazirləri səviyyəsində razılaşdırılmalı idi. Həmçinin, Ermənistan tərəfi prezident səviyyəsində görüşün olub-olmaması ilə bağlı heç bir açıqlama verməyib. Belə bir şəraitdə həmsədrlərin necə görüş təşkil etdikləri müəmmalıdır. Hətta görüş təşkil edilsə belə, masada konkret bir həll planı yoxdur".

Politoloqun sözlərinə görə, üstəlik, görüşün keçirilməsi üçün tərəflərin mövqeyində fərqliliklər var. "Cəbhə xəttində baş verən son gərginliklərdən sonra Azərbaycan tərəfi vəziyyəti real qiymətləndirir. Bakı Azərbaycanın ərazi bütövlüyünün konkret dəstəklənməsini istəyir. Azərbaycan Ermənistan ordusunun 7 rayondan dərhal çıxarılmasını tələb edir. Daha sonra Dağlıq Qarabağın statusu ilə bağlı müzakirələrin aparılmasını istəyir" - Qabil Hüseynli deyib.

"Azərbaycanın torpaqları işğal altındadır. Ona görə də Azərbaycan vəziyyətin gərginləşməyəcəyi ilə bağlı zəmanət verə bilməz" - politoloq ardınca əlavə edib.



Öz növbəsində "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hazırki məqamda görüşün baş tutmasını real saydığını deyib: "Çünki prezidentlərin görüşü müxtəlif mənbələrdən təsdiqlənib. Görüş zamanı əsas müzakirə mövzusu Ermənistan ilkin şərt qoymadan Dağlıq Qarabağ ətrafındakı 5 rayonları boşaltması olmalıdır. Ermənistan rayonları boşaltmağa hazırdır, ya yox? Əks halda Vyanadakı görüşün əhəmiyyəti yoxdur və dövlət başçısı İlham Əliyevin sözləri ilə desək, bu imitasiya xatirinə görüş olacaq. Belə görüşlər bizi geri sala bilər. Çünki 22 ildə aparılan məhz bu cür görüşlər Dağlıq Qarabağ və ətraf rayonların işğal altında qalmasına, status-kvonun qorunmasına şərait yaradıb".

***

"Qarabağ münaqişəsinin həlli məsələsində dəyişikliyin vaxtıdır". Bunu isə APA-ya açıqlamasında tanınmış amerikalı politoloq, Qlobal Təhlükəsizlik Analizi İnstitutunun Energetika, təbii resurslar və geosiyasət mərkəzinin direktoru Ariel Koen deyib. O bildirib ki, Minsk prosesi hələ ki heç bir nəticə vermir: "Dağlıq Qarabağ münaqişəsi zonasında gərginliyin artması və müharibə təhlükəsinin yeni səviyyəyə çatması heç də təəccüblü deyil".

A.Koen Ermənistan Qarabağ münaqişəsindən ciddi zərər gördüyünü söyləyib. O qeyd edib ki, Ermənistanın 1 milyondan çox əhalisi ölkəni tərk edib, ölkədə yaşayış səviyyəsi minimuma enib: "Ermənistan vacib investisiya və iqtisadi imkanları əldən buraxıb, öz demokratiyasını təhdid altına salıb. Onun elitası biznesə köklənməyib".

Nüfuzlu politoloqun sözlərinə görə, BMT qətnamələrinin də tələb etdiyi kimi, ermənilər sülh prosesi və nizamlanması çərçivəsində Azərbaycanın işğal olunmuş ərazilərini geri qaytarmalı və Cənubi Qafqazda sülh bərqərar olmalıdır. O əlavə edib ki, Ermənistan tərəfindən Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınması sülhə aparmayacaq və bu, səhv yoldur.

Erməni politoloq Aleksandr İsgəndəryan düşünür ki, Vyana görüşünün nəticəsi yalnız Minsk prosesini reanimasiya eləmək və Dağlıq Qarabağ konfliktinin nizamlanmasını siyasi axara keçirmək səylərindən ibarət ola bilər: "Söhbət aprel eskalasiyasına kimi getmiş siyasi prosesin bərpasından gedir. Başqa, daha ciddi nəticələr gözləmək məncə, real yanaşma olmazdı. İndi maksimum ona nail olmaq mümkündür ki, Minsk Qrupu çərçivəsində danışıqlar bərpa edilsin və münaqişə tərəflərinin düşdüyü kifayət qədər kəskin situasiyadan çıxarılsın".

Onun qənaətincə, hazırda Qarabağ nizamlanmasında risklər artıb. "Mən hesab eləmirəm ki, genişmiqyaslı müharibə ehtimalı çox yüksəkdir. Ancaq aprel hadisələrinə kimi olan vəziyyətlə müqayisədə eskalasiya riski bir qədər artıb. Hazırda siyasi proses aprelə kimi olandan olduqca çətin gedir. Hərçənd, onda da parlaq şəkildə getmirdi. Eskalasiya situasiyanı qarışdırdı. İndi artıq yeni, "təcili yardım" və ya yanğınsöndürmə rejimində zorakılığı azaltmaq və münaqişənin siyasi nizamlanmasını bərpa eləmək üçün səylər gərəkdir" - İsgəndəryan əmin olduğunu bildirib.

***

**Beləliklə, Vyana görüşü ilə bağlı yerli və əcnəbi analitiklər elə də nikbin deyillər. Bu da onunla bağlıdır ki, həmin görüşü səmərəli edə biləcək ciddi ön hazırlıqlar, demək olar, gözə dəymir. Həmsədrlərin son bəyanatı bu qənaəti gücləndirir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

# Supermarketlərlə nazir arasında ƏDV davasının ikinci pərdəsi

**Bir müddət öncə ölkənin bir çox iri supermarket şəbəkələrinin sahibləri müflis olmaq təhlükəsi ilə üzləşdiklərini bildirərək, iqtisadiyyat naziri Şahin Mustafayevə müraciət etmişdilər. Nazir də bu müraciətə operativ reaksiya verərək, supermarket şəbəkələri sahiblərinin nümayəndələrini qəbul etmişdi. Sahibkarlar istəyi bu idi ki, yerli istehsal olan sosial əhəmiyyətli gündəlik tələbat mallarının parakəndə satışının ƏDV-dən azad olunması üçün qanunvericilikdə dəyişiklik edilsin. Lakin vergilər naziri Fazil Məmmədov açıqlama verdi ki, supermarketlərə vergi güzəştlərindən söhbət gedə bilməz. F.Məmmədov bildirdi ki, supermarketlər şəbəkələrinin sahibləri ölkədə istehsal edilən kənd təsərrüfatı mallarının parakəndə satışının ƏDV-dən azad edilməsini istəyirlər. Hazırda belə məhsulların 90-95 faizi bazarlarda, yarmarkalarda satılır. "Kim daha yaxşı çeşidlənmiş, qablaşdırılmış məhsul almaq istəyirsə, vergisini ödəyib supermarketlərdən ala bilər. Ona görə də, bu məsələdə vergi güzəşti mümkün deyil".**

Fazil Məmmədovun supermarket şəbəkələrinin sahiblərinin qaldırdığı məsələyə bu cür qəti şəkildə əks mövqe bildirməsi sahibkarları çıxılmaz vəziyyətə salıb. Devalvasiya nəticəsində əhalinin alıcılıq qabiliyyətinin iki dəfə aşağı düşdüyünü deyən sahibkarlar hesab edirlər ki, yaranmış vəziyyəti, iqtisadi şərtlərin ağırlaşmasını nəzərə alaraq hökumət parakəndə satış sahəsində vergi yükünü azaltmaq üçün addımlar atmalıydı.

Bəs görəsən, hökumət supermarketlərin bu çətin vəziyyətdən çıxması üçün hansı addımlar atacaq? Vergilərin azaldılması büdcəyə gələn vergi ödənişlərini azaldacaq, marketlərə yardım edilməməsi isə yüzlərlə insanın iş yerini itirməsinə səbəb olacaq. Hökumət bu ƏDV yükünün altından necə çıxacaq? Market rəhbərləri ilə nazir arasındakı ƏDV mübahisədi nə ilə nəticələnəcək?

"Yeni Müsavat"a açıqlama verən **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, Fazil Məmmədovun bu çıxışının səbəbi bu il büdcədə vergi yükünün artırılmasıdır: "Hər iki tərəfin yanaşmasının öz məntiqi var. Vergilər Nazirliyinin vergi paketində ƏDV çox önəmli rol oynayır. ƏDV-nin ləğv olunması və ya azaldılması Vergilər Nazirliyi qarşısında qoyulmuş planı yerinə yetirməkdə çətinliklər yaradır. Nazirliyin bu təqribən 7,9 milyard manata yaxın vergi yükü var. Məhz buna görə Fazil Məmmədov ƏDV-nin azaldılmasına və ya ləğvinə qarşı çıxır. İkinci bir məqam isə odur ki, Vergilər Nazirliyi ƏDV ilə bağlı obyektlərdə aparılan yoxlamalarda da çox böyük üstünlük qazanır. Bu baxımdan ƏDV ilə bağlı güzəştlər həmin üstünlükləri də itirə bilər. Bu iki səbəbdən Vergilər Nazirliyi bu məsələyə qarşı çıxır".

**İqtisadçı-ekspert sahibkarların tələblərinə də haqq verərək, devalvasiyadan sonra ticarətdə dövriyyənin azalması məsələsinə toxundu:** "Sahibkarların məntiqi isə başqadır. Son dövrlərdə əhalinin gəlirlərinin



**Vahid Əhmədov:** "Fazil Məmmədov vergilər naziri olaraq, başqa cür danışa bilməzdi..."



**Natiq Cəfərli:** "İstənilən vergi yükünün zərbəsi sonda vətəndaşa dəyir"

azalması, iş yerlərinin bağlanması ilə əlaqədar sahibkarların dövriyyəsi aşağı düşüb. Dövriyyəsi aşağı düşən supermarket şəbəkələrində qazanc da azalıb. Bu da həmin şəbəkələrin saxlanmasında problemlər yaradır. Artıq regionlardakı və Bakıdakı supermarket filialları ya bağlanıb, ya da bağlanmaq haqda düşünür. Bu baxımdan onlar gündəlik istehlak mallarında ƏDV-nin azaldılmasını düşünürlər. Əgər ƏDV-nin azalması ilə qiymətlərdə ucuzlaşma olsa, bu zaman dövriyyə artacaq və gəlir də çoxalacaq. O da həqiqətdir ki, istənilən vergi yükünün zərbəsi sonda vətəndaşa dəyir.

Çünki ƏDV-nin ödəyicisi vətəndaşdır. Vətəndaş hər dəfə marketlərdən bazarlıq edərkən aldığı məhsulların üzərində ƏDV-yə əlavə ödəniş edir. Bu ki, tərəfin çəkişməsinin qurbanı yenə də vətəndaş oldu".

**N.Cəfərli bildirdi ki, ƏDV-də dəyişiklik olmasa belə, sahibkarları vəziyyətdən necə çıxartmaq üçün güzəştlər lazımdır:** "Ya vergilər, ya da gömrük rüsumları azaldılmalıdır ki, sahibkarlar da satdıqları məhsulun dəyərini azaltsınlar. Yaxud da qeyri-leqal yoxlamalar azaldılmalıdır ki, sahibkarlar ən azından qeyri-leqal xərcləri azaltsınlar. Bunların heç biri hələ ki, baş tutmur. Büdcənin indiki durumunda dövlət qurumlarının öz yoxlama səlahiyyətlərindən imtina edəcəyini də düşünmürəm. Vergi və gömrük rüsumlarının kəskin şəkildə azaldılması gözlənilmir. Hər iki tərəf bu məsələdə sonuna qədər dirənmək istəyir. Sahibkarlar isə vergi və gömrük rüsumlarından istifadə edərək qiyməti müəyyən qədər salmağı düşünürdü. Ancaq əgər bu baş verməyəcəksə sahibkarlar qiymətləri qaldırmaq məcburiyyətində qalacaq. Yəni getdikcə biz qiymətlərin daha da artacağını müşahidə edəcəyik. Bundan sonra isə tələbatın azalmasını, dövriyyə və gəlirlərin aşağı düşməsini, bu səbəbdən həmin şəbəkələrin bağlanmasını, yüzlərlə insanın işsiz qalmasını müşahidə edəcəyik".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə ƏDV-nin diferensiallaşdırılmasının vacibliyindən danışdı və bunun büdcəyə vergi daxilolmalarına mənfi təsir etməyəcəyini qeyd etdi: "ƏDV büdcəni formalaşdıran əsas vergi növlərindən biridir. Ona görə də burada İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi oturub müzakirə etməli və həm sahibkarların vəziyyətini yüngülləşdirən, həm də büdcəyə ziyan vurmayan ortaq bir yol tapmalıdırlar. Elə məhsullar var ki, onlara ƏDV-ni 25-30 faiz də qoymaq olar. Avtomobil, mebel, məişət cihazları və sairi insanlar 10 ildə bir dəfə alırlar. Ancaq gündəlik ərzaq malları daha çox istehlak edilir. Onların üzərinə qoyulan ƏDV-ni azaltmaq olar. Bu həm də qiymətlərin ucuzlaşmasına səbəb olar. Yəni əlavə dəyər vergisinin diferensiallaşdırılması həyata keçirilməlidir. Mən də Fazil Məmmədovun açıqlamasını oxudum. O, vergilər naziri olaraq, başqa cür deyə bilməzdi. Çünki o nazirlik dövlət büdcəsinə vergi daxilolmalarına nəzarət edir. Ancaq məsələ qaldırılıb və baxılmalıdır. Bu dəyişikliklər elə qaydada edilə bilər ki, heç dövlət büdcəsinə daxilolmalarda da azalma olmaz. Məsələn, əsas prestij mallara yüksək ƏDV tətbiq etmək, gündəlik tələbat mallarına isə daha az ƏDV tətbiq etməklə buna nail olmaq mümkündür".

❑ **Nərgiz LİFTİYEVA**

# Bakıda Türk İslam Araşdırmaları Mərkəzi yaradıldı

## Telman Quliyev: "Bu, Azərbaycan milli maraqları üçün lazım olan bir mərkəzdir"



**Azərbaycanda yeni elmi-düşüncə mərkəzi yaradılıb. Türk İslam Araşdırmaları Mərkəzi adlı təşkilatın məqsədi türk xalqlarının, Qafqazın müsəlman xalqlarının etnoqrafiya, tarix, coğrafiya, din, sosial-mədəni həyatıyla bağlı müxtəlif araşdırmalar aparmaq, bu araşdırmaları sənədlər şəklində yayımlamaq, Türkiyə və türk dünyasının müxtəlif universitetləri, düşüncə quruluşlarıyla birgə bu yöndə ortaq projelər həyata keçirməkdir. Strateji Avrasiya bölgəsinin, "İpək yolu"nun qovşaq nöqtəsində olan Azərbaycanın elm, düşüncə və mədəniyyət mərkəzi olma yönündəki fəaliyyətlərinə töhfə verməkdir. Mərkəzin rəhbəri, tarix elmləri doktoru Telman Quliyev "Yeni Müsavat"a müsahibəsində belə bir mərkəzin yaradılmasının zərurətindən danışıb.**

***- Telman müəllim, Azərbaycanda belə bir düşüncə mərkəzinin yaradılması zərurəti nədən yarandı?***

- Millətlərin tarixində çox strateji əhəmiyyət kəsb edən sahələr var. Bu sahələrin başında təhsil gəlir. Öz tarixini, yaşadığı coğrafiyanı dərindən tanımaq və buna görə hədəfini müəyyən etmək çox önəmlidir. Böyük dövlətlərin, böyük millətlərin hansının bugünkü halına baxsaq, insanı mərkəzdə götürən bir siyasət yürütdüklərini, insan faktoruna yatırım edərək bu günə gəlib çıxdıqlarını görərik. Bu gün Avropada, ABŞ-da, Türkiyədə düşüncə mərkəzləri fəaliyyət göstərir. Bu, bir millətin hədəfini, gələcəklə bağlı plan və proqramlarını müəyyənləşdirilməsi üçün əhəmiyyətli məsələdir. Biz özümüzü tanıya bilməsək, tarixi, milli, dini kimliyimizin fərqində ola bilməsək, bir çox məsələlərlə bağlı doğru siyasət və strategiya həyata keçirə bilməyəcəyik. Bu mənada Avrasiya coğrafiyasının ən strateji bölgəsi sayılan, "İpək yolu"nun qovşaq nöqtəsi sayılan Bakıda Türk İslam Araşdırmaları Mərkəzini yaratdıq. Bizim mərkəz tarix, dil, etnoqrafiya, coğrafiya sahəsində fəaliyyət göstərəcək.

***- Mərkəzin fəaliyyət istiqaməti nələr olacaq?***

- Bizim mərkəz yeni qurulmuş bir mərkəzdir. Əsas fəaliyyətimiz elmi araşdırmalar aparmaqdır. Mərkəzimiz konkret sahələrlə, bağlı etnik-demoqrafik yapılarlar bağlı sənədlər hazırlamaq, gənc tədqiqatçılar üçün kitabxana qurmaq, xaricdə olan tədqiqatçıların faydalana biləcəyi bir mərkəzə verilməyi hədəfə alıb. Biz Bakını bir elm və düşüncə mərkəzinə çevrilməsində iştirak etmək istəyirik. Çünki biz özümüzü tanımasaq heç bir uğur qazana bilməyəcəyik. Çar Rusiyası Azərbaycanı işğal etməmişdən öncə bir sıra elmi cəmiyyətlər quraraq, mütəxəssislər yetişdirərək bu bölgəni tanımağa, bu xalqlarla bağlı siyasətini müəyyənləşdirməyə başladı. Çar Rusiyasının Azərbaycanı tanımaqla bağlı yayımladıqları dərgiləri toplasaq, cildlərlə kitab edər. Yəni bizim başqalarından daha çox özümüzü öyrənməyimizə ehtiyac var. Biz tez-tez bu cür məlumatlara rast gəlirik ki, avropalı, amerikalı araşdırmaçılar bizi araşdırmaq üçün Türkiyə və Rusiya arxivlərinə müraciət edirlər. Çünki biz özümüzü tanımırıq və lazımi sənədləri ortaya qoya bilmirik. Bu, Azərbaycan hökumətinin "İpək yolu" üzərində, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində qurduğu böyük enerji layihələri var. Biz də təklif edirik ki, elmi baxımdan bu işə bir töhfəmiz olsun.

***- Təşkilatın Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsində yaranan problemin səbəbi nədir?***



- Onlar bizim qeydiyyat sənədlərinə baxdılar və mənə aprelin 26-da cavab məktubu yazdılar ki, nizamnamədə bəzi texniki qüsurlar var. Nizamnamədəki bəzi nöqsanların aradan qaldırılması ilə bağlı təkliflər irəli sürmüşdülər. Biz də bu nöqsanları düzəldib yenidən müraciət etmişik. Mən sizin mətbuat vasitəsilə də Ədliyyə Nazirliyinin rəhbərliyinə, ölkənin siyasi rəhbərliyinə, elmi rəhbərliyinə müraciət etmək istəyirəm ki, insan yatırımı bütün millətlərin yüksəlişində önəmli rol oynayır. Biz burada dövlətdən maddi qarşılıq gözləmədən layihələr həyata keçirəcəyik, Azərbaycan və Türk dünyası ilə bağlı müstəmləkə zehniyyətindən irəli gələn bir çox yanlış bilgilərin doğru bilgilərlə əvəzlənməsi üçün çalışacağıq. Bizim mərkəzin qeydiyyata alınması həm də xarici ölkələrdəki tədqiqatçıların fəaliyyəti üçün önəmli olacaq. Bu, Azərbaycanın milli maraqları üçün lazım olan bir mərkəzdir. Bu mərkəzin qeydiyyata alınmasına yardım etsinlər.

❑ **Nərgiz LİFTİYEVA**

# Müəllimindən hamilə qalan şagird danışdı

## Qızın atası: “Ciddi cəza verilməsə, onu özüm öldürəcəm”

**Şamaxı rayon Pirbəhli kəndində 9-cu sinif şagirdinin müəllimindən hamilə qalması barədə xəbər yayılıb. Modern.az saytının xəbərində bildirilir ki, şagird müəllimi İbrahimov Elnur Həsənağa oğlundan yeddi aylıq hamilədir. Məsələnin maraqlı tərəflərindən biri budur ki, Şamaxı rayon məhkəmə tibb eksperti Məmməd Abdulrahibov 7 aylıq hamilə olan 15 yaşlı şagirdin bakirə olduğu haqda rəy verib. Hadisə ilə bağlı Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) cinayət işi başlanılıb, araşdırma gedir.**

Ölkə.az hamilə olan şagirdin (azyaşlı olduğu üçün adını açıqlamırıq-red.) **atası Valeh Babayev** ilə əlaqə saxlaya bilib.

***- Valeh bəy, məlum məsələ ilə bağlı haralara müraciət etmisiniz?***

- Polis, prokurorluq, məhkəmə, Prezidentə, ölkənin birinci xanımı Mehriban Əliyevaya, Dövlət Təhlükəsizlik xidmətinin rəhbəri Mədət Quliyevə, daxili işlər naziri Ramil Usubova, Respublika prokuroruna müraciət etmişəm.

***- Sizin əsas tələbiniz nədir? Bu oğlanın həbs olunmağını istəyirsiniz, yoxsa qızınızla ailə qurmağını?***

- Lazımi yerlərə sözümü demişəm. Ona ağır ciddi cəza verilməsə, özüm onu öldürəcəyəm.

***- Qızınız indi hardadır?***

- Bibisigildədir.

***- Əvvəldən bu müəllimi tanımısınız?***

- Hamı kimi mən də balamı məktəbə yollamışam.

***- Orada göstərilir ki, yeddi aylıq hamilədir. Bu dövrə qədər siz bunu hiss etməmisiniz?***

- Heç kim hiss etməyib. Kim istəyər ki, balası bu yola gəlib çıxsın.

***- Bu qızdan savayı neçə övladınız var?***

- İki balaca övladım da var.

***- Bu söhbətin üstü açılandan sonra qızınızı görmüsünüz?***

- Anası görüb, mən yox. Anası dünən gəlib yanından.

***- Oğlan desə ki, bu xanımla ailə qurmaq istəyirəm, bağışlayarsınızmı?***

- Xeyr, o, mənim düşmənimdir. Onun atası və qohum-əqrəbası gəldi. Bizim başımızı yastığa qoydular ki, yoldaşını boşayıb, bu qızı alacaq. Mən də maraqlandım, arvadı da yanındadır, uşaqları da.

***- Bu müəllimin neçə yaşı var?***

- Otuzdan yuxarı olmalıdır.

***- Şamaxıdandır, yoxsa təyinatla gəlib?***

- Qapıbir qonşumdur bu biqeyrət. Aramızda bir ev var. Çox pis ailədirlər.

***- Atasıgil gəlmişdilər ki, guya qızınızla ailə quracaq?***

- Yalandan gəlib ağlayıb, başımı yastığa qoyurdular. Amma yalan deyirmiş. Mən də nə zülmlə bala böyütmüşəm. İnsanın namusuna toxunmaq bilirsiniz də nə deməkdir?

***- Aydın məsələdir. Ekspertiza rəy verib ki, qız bakirədir.***

- Onu pulla elətdiriblər. Bu barədə də lazımi orqanlara şikayətimi vermişəm.

**Elnur İbrahimovun atası Həsənağa İbrahimov** isə məsələ ilə bağlı Modern.az saytının suallarını cavablandırıb. H.İbrahimov oğlunun günahkar olmadığı qənaətindədir: “Hadisə ilə bağlı prokurorluqda cinayət işi açılıb, araşdırma gedir. Oğlum həmin gündən məktəbdəki işindən kənarlaşdırılıb. Həmin qız da məktəbi keçən il bitirib, yəni hazırda məktəb şagirdi deyil.

3 ekspertin rəyindən sonra həmin qızın bakirə olduğu meydana çıxıb. Mən hesab edirəm ki, bu mənim oğluma atılan şərdir. Amma əgər qərar verilərsə ki, günahkar oğlumdur, biz sinəmizi arxaya çəkmərik".

**H.İbrahimov oğlunun ailəli, 2 uşaq atası olduğunu bildirib**: “Onun evində də dava-dalaş düşüb. Biz həmin ailəylə qonşuyuq. Mən o ailəyə təklif etmişəm ki, hökumət desə "günahkar oğlundur", mən qızı evimə gəlin gətirərəm".

H.İbrahimov “axı sizin oğlunuz zatən ailəlidir, bu qızı hara aparacaqsınız” sualını “başqa çarəm qalmır, məhkəmə qərar verəndən sonra mən kiməm”,- deyə cavablandırıb.

**H.İbrahimov həmçinin “ata olaraq oğlunuzla bu barədə danışmısınızmı, belə bir əməl törətdiyini boynuna alırmı” sualına belə cavab verib:** “Biz qonşuyuq, mənim oğlum deyir ki, qıza əl də vurmayıb. Prokurorluqda cinayət işi açılandan oğlum da, yoldaşı da işdən çıxarılıb. Hazırda Elnur polis bölməsindədir”.

**Müəllimindən yeddi aylıq hamilə qaldığı deyilən 9-cu sinif şagirdi də danışıb. Musavat.com AzNews.az ölkə.az-a istinadən həmin müsahibəni təqdim edir:**

***- İbrahimov Elnuru nə vaxtdan tanıyırsan, hansı fəndən dərs keçirdi?***

- Yeddinci sinifdən tanıyıram, bizə tarix dərsi keçirdi.

***- Həmin dövrdən münasibətiniz var idi?***

- Bir kənddə yaşamışıq, amma neçə ildir burada olmurdu. İki ildir ki, bu məktəbdə dərs keçirdi.

***- Bəs yaxın münasibətiniz nə zamandan başladı?***

- Elə o vaxtdan mənə diqqətlə baxdığını, nəzərinin üstümdə olduğunu hiss edirdim. Amma ciddiyə almırdım, deyirdim ki, yəqin müəllimdir də elə-belə baxır. Ona görə fikir vermirdim.

***- Evdə valideynlərinə demişdin ki, mənə qəribə baxır, narahat oluram?***

- Valideynlərimin qorxusundan evdə heç nə demədim.

***- Bəs necə oldu ki, sənə olan münasibətini açıqladı?***

- Sinifdə tək olanda gəlib istədiyini deyirdi. O nə deyirdisə, qarşı çıxırdım.

***- İntim münasibətiniz sənin öz istəyinlə olmuşdu?***

- Yox, məcburi oldu.

***- Onun evindəmi, məktəbdəmi?***

- Gecə idi, valideynlərim də evdə deyildi. Ayaqyoluna gedəndə qəfil arxadan ağzımdan tutdu. Qışqırmaq istədim, dedi ki, şəkilləri yadına sal.

***- Nə şəkillər idi?***

- Məktəbdə çəkmişdi. Məcburi, məni döyə-döyə çəkmişdi.

***- Həmin fotolarda bədənin açıq şəkildə görünürdü?***

- Bəli.

***- Ondan sonra aranızda cinsi münasibət oldu?***

- Ağrılarım var idi, xəstəxanaya getdim. Uşaq altı aylıq olana qədər heç nə hiss etmirdim.

***- Axırıncı dəfə Elnurla nə vaxt danışmısan?***

- Elə o vaxt.

***- Sənin açıq-saçıq fotolarını məktəbdə çəkmişdi?***

- Bəli. Sinifdə tək idim, içəri girdi, hədələdi, şillə ilə vurdu. Dedi ki, hər şey yaxşı olacaq, qiymətlərini düzəldəcəyəm. Şəkillər də onda çəkilmişdi.

***- Neçə dəfə yaxınlığınız olub, yadındadır?***

- Bircə dəfə olub. Elə onda da hamilə qalmışam.

***- Valideynlərin sənin övladına sahib çıxırlarmı, özün nə düşünürsən?***

- Uşağı neyləyirəm, cəhənnəm olsun uşaq. Mənə uşaq lazımdır? Elə özüm uşağam da.

***- Valideynlər in nə deyir?***

- Tutulmağını istəyirlər. Mənim də istədiyim odur ki, tutulsun.

***- Səninlə evlənmək istəsə?***

- Neyləyirəm onun mənimlə evlənməyini? Arvadını yanında saxlayıb, iki uşağı da var.

***- Birdən ayrılsa necə?***

- Razılaşmaram.

***- Məktəbdən sonra telefonla danışırdınız?***

- Xeyr, mənim telefonum olmayıb.

***- Bu barədə polisə ifadə vermisən?***

- Bəli.

***- Üzləşdirilmisiniz?***

- Xeyr.



### “7aylıq hamiləyə bakirə olması barədə rəy verən ekspert: “Seksual xarakterli hərəkətlər yolu ilə hamilə qalmaq mümkündür”

Şamaxı Rayon Məhkəmə Tibb Ekspertizası Pirbəhli kənd sakininin başına gətirilən biabırçı olayla bağlı yaranmış qeyri-müəyyənliyə aydınlıq gətirib.

**Məhkəmə tibbi eksperti Məmməd Abdulrahibov AzNews.az-a açıqlamasında 9-cu sinif şagirdinin müəllimi tərəfindən seksual xarakterli hərəkətlərə məruz qaldığını təsdiqləyib:** “Mən həmin şagirdlə bağlı rəyimi yazıb komissiyanın iştirakı ilə təqdim etdim. Rəydə bildirilir ki, şagird hazırda bakirədir. Ancaq şagirdə qarşı əxlaqsız hərəkətlər olunub. 15 yaşlı şagird seksual xarakterli hərəkətlər yolu ilə hamilə qalıb. Bu yolla hamilə qalmaq mümkündür. Qız bakirə olsa da, doğuşa az qalıb”.

**Məktəblinin İbrahimov Elnur Həsənağa oğlundan hamilə qalıb-qalmamasına gəlincə M.Abdulrahibov bildirib ki, bu barədə məlumata malik deyil**: “Qızın kimdən hamilə qalması artıq müstəntiq araşdırmasıdır”.

bakcell

**iPhone istifadəçiləri olan “Bakcell” abunəçiləri üçün “İnstagram”dan pulsuz istifadə imkanı**

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi “Bakcell” şirkəti Azərbaycanda bənzəri olmayan internet təklifləri ilə abunəçilərini sevindirməyə davam edir. Şirkət iPhone istifadəçiləri üçün pulsuz Instagram xidmətini istifadəyə verdiyini elan edir. Bir müddət öncə “Bakcell” Novruz hədiyyəsi kimi Pulsuz facebook və Klass tarifində olan abunəçilər üçün pulsuz Whatsapp kimi müxtəlif innovativ data təkliflərini təqdim edib.**

**İndi iPhone mobil telefonlarına sahib olan bütün Bakcell abunəçiləri xüsusi sərfəli iPhone paketləri daxilində Instagram xidmətindən pulsuz istifadə etmək imkanı qazanacaqlar. Yeni iPhone paketləri əsas internet paketindən və abunəçilərin öz iPhone mobil telefonlarında istifadə edə biləcəyi xüsusi bonusdan - “Instagram”dan istifadə etmək üçün əsas internet paketinin həcminə bərabər olan həcmdə pulsuz trafikdən ibarətdir.**

**“Bakcell" şəbəkəsində iPhone istifadəçilərinin sayı çoxdur və onların əksəriyyəti fəal Instagram istifadəçiləridir. “Bakcell”in “Daha yaxın olaq” fəlsəfəsinə uyğun olaraq, biz çalışırıq ki, abunəçilərimiz yaşadıqları xoş anları öz yaxınları, dostları və ailələri ilə daha çox paylaşmaq imkanına malik olsunlar. Biz inanırıq ki, indi hər bir iPhone istifadəçisi təqdim edilən bu internet paketlərindən özünə ən çox uyğun olanını seçə biləcək. Aylıq istifadə həcmindən asılı olaraq siz təkliflərdən birini seçə və ona uyğun internet paketində “Instagram”dan pulsuz faydalana bilərsiniz", - deyə Bakcell şirkətinin baş marketinq və satış direktoru Fedja Hadziç bildirib.**

**iPhone istifadəçilərinin yararlana biləcəyi yeni paketlər üstünlükləri və aktivləşdirmə kodları ilə birlikdə aşağıdakı cədvəldə göstərilib:**

**iPhone istifadəçiləri üçün paketQiymət (ƏDV daxil)Aktivləşdirmə kodu**

| iPhone istifadəçiləri üçün paket | Qiymət (ƏDV daxil) | Aktivləşdirmə kodu |
|---|---|---|
| 1GB + 1GB Instagram | 6 AZN | *134*11# yığın və ya “11” yazıb 5934 qısa nömrəsinə SMS göndərin |
| 2GB + 2GB Instagram | 8 AZN | *134*22# və ya “22” yazıb 5934 qısa nömrəsinə SMS göndərin |
| 3GB + 3GB Instagram | 10 AZN | *134*33# və ya “33” yazıb 5934 qısa nömrəsinə SMS göndərin |
| 5GB + 5GB Instagram | 12 AZN | *134*55# və ya “55” yazıb 5934 qısa nömrəsinə SMS göndərin |

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 104 (6425) 14 may 2016

**Dünya bazarlarında neft bahalaşaraq 47,68 dollara çatıb. "Azeri Light" markalı Azərbaycan nefti isə mayın 12-də London əmtəə birjasında keçirilmiş hərraclarda 1 bareli 48,25 dollara satılıb. Qeyd edək ki, bu qiymət mayın 11-də qeydə alınmış qiymətlə eynidir.**

# Azərbaycan neftinin qiymətinin sabit qalması mümkün deyil

## İqtisadçı-ekspert: "Qiymətin 50 dollardan yuxarı qalxması yaxın gələcəkdə gözlənilmir"

Bəs görəsən Azərbaycan neftinin qiymətində bu tendensiya davam edəcəkmi? Məsələ ilə əlaqədar **iqtisadçı-ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan neftinin qiyməti ayrıca müəyyən olunsa da ümumi olaraq Brent markalı neftə bağlıdır və onun qiymətləri ilə hesablanır: "Son günlər dünyada baş verən bəzi hadisələr dünyada neftin qiymətinə təsir göstərdi. Kanadada neft çıxarılan ərazilərdə böyük yanğın hadisəsi baş verdi və təxminən 800 min barelə yaxın neft hasilatı dayandırıldı. 3-4 gün bundan əvvəl isə Nigeriyada təxminən 400-500 min barel neft nəql edən boru kəməri terrorçular tərəfindən partladılıb. Orda indi bərpa işləri gedir. Yəni bu fundamental Brentin dəyişikliyi deyil, bu cür gündəlik hadisələr neftin qiymətinə təsir göstərir. Və neftin qiymətləri beynəlxalq münasibətlərə, dünyada baş verənlərə çox həssas reaksiya verdiyindən qiymət artımını müşahidə edirik. Bundan başqa bu həftə ABŞ-da neft hasilatında təqribən həftəlik 20-25 min barellik azalma da müşahidə olundu. Bu da neft qiymətlərinə təsir göstərdi".

**Ekspertə görə, Brentin bahalaşmasının davamlı olması üçün fundamental dəyişikliklərə ehtiyac var:** "Yəni dünyada gündəlik tələb və təklif dəngəsi yaranmalıdır. Hələlik dünyada neftin gündəlik tələbi təqribən 93 milyon bareldir. Amma istehsal olunan neftin həcmi 95 milyon bareldən çoxdur. Yəni təklif tələbdən daha çoxdur. Qiymətlərin fundamental olaraq dəyişməsi və Brentin üzüyuxarı getməsi üçün müəyyən zamana ehtiyacı var. Ona görə də neft qiymətləri tez-tez dəyişən bir bazardır. Ola bilsin ki, gələn həftədən artıq qiymətlərdə korreksiya görək. Yenidən 40-45 barelə qədər enmə müşahidə ola bilər. İndiki dövrdə, gələn həftələrdə bəzi ölkələrin mövsüm ilə əlaqədar, yağ mövsümündən öncə neftayırma zavodlarında planlı təmir işləri görülür, çünki yay dövründə də daha çox benzinə ehtiyac olduğu üçün mazutdan benzinə keçid etmək üçün müəyyən təmir işləri görülür. Bu da çox güman ki, yaxın həftələrdə neft rezevrlərinin artması ilə müşahidə olunacaq. Həm Amerika, Avropa, həm də Asiya ölkələrində neft rezevrlərinin artması qiymətlərə mənfi təsir göstərir".



**Ekspertin fikrincə, bizim bazarda isə ən çox həssaslıqla izlənilən İranın bazardakı rolunun artmasıdır:** "İki gün bundan öncə İran neft naziri artıq gündəlik hasilatın 4 milyon barelə çatdığını bəyan etdi və yaxın gələcəkdə daha bir milyon barelin artması ehtimal olunduğunu irəli sürdü. Bu da o deməkdir ki, neft bazarında bolluq hələ davam edəcək".

**Natiq Cəfərli dünyadakı neft qiymətlərinin müşahidə olunan səviyyədə qalmasının neft hasil edən ölkələri hələlik qane etdiyini bildirdi:** "Çünki cəmi 2-3 ay bundan əvvəl neftin qiyməti 27-28 dollara qədər enmiş neft qiymətləri var idisə, indi qiymətlərdə 80 faiz artım müşahidə olunur ki, bu da hələlik neft istehsalçılarını qane edir. 45-50 dollarlıq koridor neft qiymətləri indiki şəraitdə çox optimal qiymətlər sayılır və bir çox neft hasil edən ölkələri, şirkətləri qane edəcək səviyyədədir".

**İqtisadçı neftin qiymətinin daha da artacağının gözlənilən olmadığını bildirib:** "Neftin qiymətinin 50 dollardan yuxarı çəkməsi üçün bazarda ümumi fundamental dəyişikliklərə ehtiyac var, o da çox təəssüf ki, yaxın gələcəkdə mümkün görünmür".

❑ **Xalidə GƏRAY**

# Dönəri zəhərə döndərənlər yenə iş başında

## Azad İstehlakçılar Birliyinin sədri: "Ölkəyə gətirilən xarab, murdar ətlərin də realizə olunan yerlərdən biri də dönərxanalardır"



**Bu gün paytaxtın istənilən yerində, istənilən qiymətə dönər tapmaq mümkündür. İçliyi eyni olan bu dönərlər 1 manata, 1 manat 50 qəpiyə və 2 manat 50 qəpiyə satılır. Eyni standartda olan dönərlərin müxtəlif qiymətə satılması insanda bu dönərlərin keyfiyyətinə şübhə yaradır. Son günlər leş əti satanların həbs edilməsi insanlarda bu qidaya qarşı həssaslığı artırıb. Bu tip ətlərin, kolbasa sexlərinə, restoranlara və dönərxanalara verilməsi ilə bağlı yayılan məlumatlar isə dönər alan insanların sayına da müəyyən dərəcədə təsir göstərib.**

Baş çəkdiyimiz bir neçə dönərxanada ətin baytarlıq şəhadətnaməsi ilə tanış olmaq istəsək də, şəhadətnaməni bizə göstərən olmadı. Cavablarında bizə dönərin ətini yaxşı yerdən gəldiyini və təmiz ət olduğunu dedilər. Amma dediklərini təsdiq edəcək sənəd göstərməkdən boyun qaçırdılar. Beləcə, dönər alan istehlakçı yediyi dönərin hansı heyvan ətindən hazırlandığını bilmir. Həmçinin əksəriyyət dönərxanalarda sanitar-gigiyenik qaydalarına riayət olunmadığının da şahidi olduq.

Toyq ətindən hazırlanan dönərlərin 2006-cı ildə quş qripi epidemiyasına görə Səhiyyə Nazirliyi tərəfindən qadağan edilməsinə baxmayaraq, toyuq dönərləri hələ də satılır. Elə dönərçilər də alıcıların əksəriyyətinin məhz toyuq dönəri aldıqlarını və buna tələbatın olduğunu deyirdilər. Dönər bişirənlərin əyinlərindəki çirkli xalat, istidən yanmış və yaralanmış əlləri ilə əlcəksiz işləmələri insanı bu qidadan daha da uzaqlaşdırır. Təbii ki, bu sözləri bütün dönərxanalara şamil etmək olmaz. Gigiyenik qaydalara əməl olunan dönərxanalar da vardı. Məsələn, "Qoç ət" dönərxanası kimi. Burada hər şey səliqəli idi. Həmçinin burada dönərçilər əti tərəziyə qoyub çəkib standartda nəzərdə tutulmuş şəkidə istehlakçıya təklif edirdilər.

*Maraqlıdır, əslində dönərin standartı necədi və neçəyə olmalıdır?*

Azərbaycanda bir neçə il əvvəl dönər standartı təsdiq edilsə də, bu standartlara məhəl qoyan yoxdur. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təsdiqlədiyi standartlarda ətin növündən və bir-biri ilə qarışdırılma vəziyyətinə görə dönər bir neçə növdə, qarnirlə və ya qarnirsiz satıla biləcəyi deyilir. Hazırlanan dönər standartın tələblərinə uyğun olaraq, sanitariya norma və qaydalara riayət etməklə, müəyyən edilmiş qaydadakı resepturalar üzrə hazırlanmalıdır. Dönərdə xörək duzunun kütləsi 2 faizdən çox olmamalıdır. Ətin kütləsi isə ümumi çəkinin yarısı qədər olmalıdır. Dönərin hazırlanması üçün istifadə edilən, tez xarab olan ərzaq məhsulları qüvvədə olan sanitar norma və qaydalara riayət etməklə soyuducularda saxlanmalıdır. Dönər istehlakçıya Səhiyyə Nazirliyi tərəfindən istifadəsinə icazə verilən polimer materiallardan hazırlanan paketlərə və ya qablara qoyularaq satılmalıdır. Standartın qəbul etdiyi normal temperatur 650 C-dir. O cümlədən dönərxanalarda çalışan xidmətlər üçün qəbul edilmiş qaydalara görə xidmətçilər "QOST 30524" tələblərinə cavab verməklə sanitar qaydalara tam şəkildə riayət edəcəklər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** dönərxanaların qara siyahıda olduğunu dedi: "Dönərxanalar təhlükəli, qidaya yararsız ətlərin bişirilib əhaliyə sırındığı bir şəbəkədir. Cəld yeməklər Azad İstehlakçılar Birliyinin, ümumiyyətlə dünyada istehlakçıların hüquqlarını qoruyan təşkilatların qara siyahısındadır. O cümlədən McDonals, KFC və sairə yerlər də bu qara siyahıdadır. Çox yaxşı haldır ki, iki il öncə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi dönərlərin standartını yaratdı. Bu standartda ətin, ketçupun miqdarı göstərilir. Əlavə olaraq Səhiyyə Nazirliyi dönərxanaların sanitariya qaydalarına müəyyən etdi. Yeni hüquqi sənədlər var. Bu standartlarda dönərlərin təzə ətdən hazırlayıb şişə taxıb, skoça bükük, dondurub öz avtomobillərində dönərxanalara gətirən müəssisələr var. O müəssisələrin birində biz monitorinq apardıq və gördük ki, doğrudan da təzə heyvan ətindən hazırlanıb və dediyim infrasuturlar yerinə yetirilir. Keçən ilin axırlarında yenə də monitorinq apardıq və məlum oldu ki, 85 faiz dönərxanalar dönərləri heç bir müəssisələrdən almır. Haradan necə gəldi ətlərdən istifadə olunur. Ölkəyə gətirilən xarab, murdar ətlərin də realizə olunan yerlərdən biri də dönərxanalardır. Təəssüflər olsun ki, dövlət orqanlarının qəbul etdiyi standartlar ayaq altına atılır və həyata keçirilmir".

**Qurum sədri toyuqdan hazırlanan dönərlərə olan qadağanın götürülməsini istədiklərini dedi:** "2006-cı ildə Səhiyyə Nazirliyi quş qripi ilə bağlı dönərlərdə toyuq ətindən istifadəni qadağan etdi. Defakta bizim monitopriqlər zamanı göstərdi ki, 80 faiz yerlərdə toyuq ətindən dönərlər bişirilir. Biz tərəfdarıyıq ki, toyuq mənşəyi məlum olduğundan, camaatında tələbatı olduğu üçün de-fakto satıldığından leqallaşdırılsın. Qeyri qanuni qadağa götürülsün. Biz bununla bağlı Oqtay Şiraliyevə məktub yazdıq. Lakin cavab aldıq ki, hələ ki, məsləhət görülmür. Bu o deməkdir ki, bu gigiyena həkimlərinin dolanışıq yeridir. Qadağa etmişik, amma yenə də satırlar. Bu anormal haldır. Düşünəm ki, toyuq dönərləri satılmalıdır və əlbəttə ki, bu, təzə, vaxtı keçməmiş toyuq ətindən olmalıdır".

❑ **Günel MANAFLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 104 (6425) 14 may 2016



## Yapon gənclər otaqlarından bayıra çıxmır

Yaponiyada son illərdə minlərlə evdən çıxmayan gənclər peyda olub. Onlar "hikikomori" adlanırlar. Özünü cəmiyyətdən ayıran uşaqlara belə ad qoyulub. "Hikikomori" yaponların həyatdan əlini üzüb otaqlarından belə çıxmaqdan imtina edən 1.2 milyon yapon gəncinin durumuna verdiyi addır. Onlar ya evin hamamında, ya mətbəxində, ya da hər hansı bir otağında yaşayır, ordan bayıra çıxmırlar. Amma bu açıqlanan rəqəm də dəqiq deyil. Çünki "hikkomarilər" evlərində gizləndikləri üçün dəqiq bir rəqəm söyləmək mümkün deyil. Bu, texnologiyanın inkişafının yaratdığı bir xəstəlik kimi qiymətləndirilsə də, bunun arxasında başqa səbəblər dayanır. Əsasən orta təbəqəli ailələrin oğlan uşaqlarında meydana gələn bu halı bəsit bir tənbəllik adlandırmaq olmaz. Uşaqların intiharı, ya da məktəbə getmək istəməyib, evə qapanmasına, təhsil sistemindəki imtahan çoxluğu, ağır rəqabət və ailələrin dərslərlə bağlı onlara təzyiqini səbəb kimi göstərirlər. Gənclər texnika ilə maraqlanaraq, özünü sosial çevrəyə kilidləyir. Kompüter ekranı ilə virtual dünyada özünə ünsiyyət qurur. Bu əlaqə elə bir səviyyəyə çatır ki, artıq insan bütün ehtiyaclarını öz otağında qarşılayır. Yeməyini ailəsi ilə yemir, otağında həm yeyir, həm yatır, həm də kompüterindən ayrılmır. Hətta xəstəlik o qədər ciddi səviyyəyə çatır ki, gənc ayaqyolu ehtiyacını belə öz otağında qarşılayır.

# Pizzanı dağın zirvəsinə çatdırdı

Amerikanın "Pizza Hut" restoranlar şəbəkəsi Ginnesin Rekordlar Kitabına düşməyə nail olub. Buna səbəb onların Klimancaro zirvəsinə pizza çatdırmaları olub. Restoranın Afrika şöbəsinin baş meneceri Randell Blekford, şəbəkənin əməkdaşları, professional bələdçilər "Pepperoni" pizzasını 5.8 min metr yüksəkliyə qaldırıblar. Bununla da onlar pizzanı quruda ən yüksək yerə çatdırıb və rekorda imza atıblar. Komandanın səfəri dörd gün davam edib. Səyahətin videosu isə YouTube kanalında yayılıb. Şəbəkənin prezidenti Millinda Pantın dediyinə görə, bununla da yeni bir mərhələyə qədəm qoyublar. Pizza Hut - dünyadakı ən böyük pizza şəbəkəsidir. 14958-ci ildə əsası qoyulub.




# Qadın rais məhkumlarla rəqs etdi, barəsində araşdırma başlandı

Kolumbiyanın Villahermosa həbsxanasının rəisi Patrisia Giraldo Ossa məhkumlar üçün mədəni bir tədbir keçirib. Türmənin meydançasına qurulan səhnəyə çıxan müdirə bütün məhkumların gözü qabağında 'twerking' adlı rəqsdəki hünərlərini nümayiş etdirib. Onun etdiyi rəqsin şəkilləri mətbuatda yayılanda P.G.Ossanın haqqında intizam komissiyası araşdırmaya başlayıb. Kişi məhkumlar ancaq bir cangüdəni olan rəislə növbə ilə rəqs ediblər. Türmə işçiləri isə bildirib ki, əslində rəisin əvvəlcədən belə bir planı olmayıb. Amma məhkumlar alqışlarla onu səhnəyə çıxarıblar. Bu qalmaqaldan sonra ölkənin yeni ədliyyə naziri Jorj Londono ölkə həbsxanaları ilə bağlı təcili bir araşdırmaya ehtiyac olduğunu bildirib. Məlum olub ki, Kolumbiyadakı həbsxanalar 150 faiz dolu olduğu üçün içəridə narkotik ticarəti, fiziki şiddət kimi cinayətlər geniş yayılıb.





## Mağazanın qapısında yarıçılpaq gözlədilər

Danimarkada "Buksen" adlı geyim mağazası ancaq alt paltarı alanlara şalvar və kofta hədiyyə də verib. Bu da yarıçılpaq qadınların mağazaya hücum etməsinə səbəb olub. Qadınların mağazanın qapısı ağzında yarıçılpaq dayanmasının səbəbi isə içəri daha tez girib, şalvar və koftaları geyinmək istəmələri olub. Bundan başqa, qadınlar mağazanın hədiyyə etdiyi şampan və yeyəcəklərin dadına baxıblar. Maraqlıdır ki, mağaza daha öncə də buna bənzər aksiya keçirmişdi. "Yarıçılpaq gəl, geyinmiş çıx" adlı kampaniya nəticəsində müxtəlif şəhərlərdə qadınlar mağaza açılmadan qapının ağzında yarıçılpaq dayanıb, hədiyyə almağı gözləyiblər.

## Qoroskop





**QOÇ** - Giley-güzara, kimi gəldi ittiham etməyə vaxt itirməkdənsə, reallığı nəzərə alın. Özünüzə tənqidi yanaşın. Bunu bacardığınız təqdirdə nahardan sonra ruhi rahatlıq hiss edəcəksiniz.


**BUĞA** - Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Həqiqətə yaxın olan arzularla yaşayın. Bürcünüzün "hakimiyyətdə" olduğu bu gözəl gündə enerjinizi boş şeylərə görə itirməyin.


**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.


**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.


**ŞİR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.


**QIZ** - Bu gün ulduzlar məclislərdə iştirakınızdan xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Səhhətinizə fikir verin.


**TƏRƏZİ** - Gərgin vaxt olsa da, "məsləhətli don gen olar" deyiblər, inandığınız insanların tövsiyələrinə riayət etməklə, sıxıntılarınızı dəf edə bilərsiniz. Başladığınız bütün işlərin məsuliyyətini anlamağa çalışın.


**ƏQRƏB** - Həftənin bu enerjili günündə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.


**OXATAN** - Proseslərin inkişafı mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.


**OĞLAQ** - İxtiyarınızda olan bu gözəl gün hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.


**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.


**BALIQLAR** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kassa xırda pul götürmədi, mağaza rəhbərliyi hədiyyə verdi



Amerikada da belə hadisələr baş verirmiş. Coanna Bas adlı qadın marketdə alış-veriş etdikdən sonra 115 dollarlıq hesabı ödəmək üçün kassaya yaxınlaşıb. Bütün pulu xırda olduğu üçün kassir ondan pul almaqdan imtina edib: "Get, kağız pulla gələrsən" cavabından sonra Coanna market rəhbərliyinə şikayət edib. Bu mədəniyyətsizliyi kompensasiya etməkdən ötrü qadına dəyəri 17 dollar olan hədiyyə çeki verilib. Amma etirazçı qadın geri qayıdanda bütün mallarının kassadan rəflərə geri qaytarıldığını görüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750